www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 yanvar 2018-ci il Çərşənbə axşamı № 10 (6899) Qiymәti 60 qəpik

**Xəbər**

**Rusiyalı alimə Azərbaycanda 10 sutka həbs verildi - hərbi hissənin şəklini çəkdiyinə görə**

yazısı səh.14-də

**Gündəm**

**Binəqədi İcra Hakimiyyətinə xüsusi istintaq qrupu göndərildi**



Xaləddin İsgəndərovun başı üzərindəki təhlükə böyüyür

yazısı səh.4-də

**Sumqayıtda nə baş verir - prezidentin müşavirədə vurğuladığı məqamlar...**

yazısı səh.10-da

**Yanvar və fevral ayının pensiyalarının artımı birlikdə fevral ayında ödəniləcək**

yazısı səh.14-də

**ABŞ və Türkiyə Suriyanın şimalında toqquşa bilər**

yazısı səh.7-də

**Lavrovun Qarabağla bağlı "bizlik deyil" blefi...**

yazısı səh.9-da

**Sərkisyan növbəti "aprel sınağı"ndan çıxa biləcəkmi?**

yazısı səh.11-də

**Azərbaycan və Türkiyəyə ortaq təhlükə - ASALA...**

yazısı səh.7-də

**Trampa bütün dünya etiraz edir, o isə tövrünü pozmur**

yazısı səh.12-də

**Azərbaycan 600 min manata "Stalinin yaxtası"nı almaq istəyir**

yazısı səh.12-də

**Qlobal istiləşmə - gerçəklik, yoxsa uydurma...**

yazısı səh.15-də

**Dünyanın düzənini dəyişən yanlış anlaşılmalar, tərcümə xətaları...**

yazısı səh.15-də

# ERMƏNİSTAN ÜSYAN ƏRƏFƏSİNDƏ - MÜXALİFƏT XALQI KÜÇƏYƏ ÇAĞIRDI

"10 gün sonra ölkədə üsyan başlaya bilər" - erməni siyasilər və politoloqlardan hakimiyyətə sərt xəbərdarlıq gəldi; "Parlament dinləmələri heç nəyi dəyişməyəcək, əgər..."




yazısı səh.8-də

## Ziya Məmmədovu həbsə göndərmək istəyirlər - keçmiş ortağından şok açıqlamalar

Hafiz Məmmədov sabiq naziri və Eldar Mahmudovu dövlət səviyyəsində reketlikdə ittiham edir: "Ziya Məmmədov xüsusi təyinatlılarla birgə..."

yazısı səh.4-də




**Fazil Məmmədov yeznəsinə milyonları necə qazandırıb...**

yazısı səh.5-də



*Vasif İsmayıl:*

**"45 yaşdan sonra müntəzəm olaraq "check-up" üçün həkimə gedilməlidir"**

yazısı səh.6-da



**İsa Qəmbərin səhhəti yaxşılaşır, hökumət məsrəfləri üzərinə götürür**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018



# Prezident İlham Əliyevin Bolqarıstanın baş naziri ilə təkbətək görüşü oldu

**Bolqarıstan Respublikasının baş naziri Boyko Borisov yanvarın 15-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib. Azərbaycan prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub.**

Görüşdə ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirilib. Bolqarıstanın baş nazirinin Azərbaycana səfərinin əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub, ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib (APA).

Daha sonra Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan baş naziri Boyko Borisovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra prezident İlham Əliyev və Bolqarıstan baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər.

Daha sonra prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bolqarıstan baş naziri Boyko Borisovla birgə şam ediblər.



# Manatın real effektiv məzənnəsi yenidən artıb

**Azərbaycan manatının real effektiv məzənnəsi 2017-ci il dekabr ayının 1-nə 94,9 bənd təşkil edib. "Report" Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir ki, bu, noyabrın 1-nə olan analoji göstəricidən 1,3 faiz bəndi çoxdur. Əvvəlki ilin analoji dövründə olan göstəriciyə nisbətən isə real effektiv məzənnə 4,6 faiz bəndi artıb.**

Real effektiv məzənnənin artmasına səbəb Azərbaycanın əsas ticarət tərəfdaşı olan ölkələrin milli valyutaları - Türkiyə lirəsi, Rusiya rublu və Çin yuanının dollarla müqayisədə noyabr ayında ucuzlaşması amili göstərilir. Xatırladaq ki, manatın real effektiv məzənnəsi 2000-ci ildən hesablanır, minimum səviyyəsi 2004-cü ildə (74,2), maksimum səviyyəsi 2015-ci il yanvarında (153,1) qeydə alınıb. Maliyyə böhranı başlayandan isə minimum hədd 2016-cı il sentyabrın 1-də (87 bənd) olub.

Qeyd edək ki, real effektiv məzənnə - manatın ticarət tərəfdaşı olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrinin dəyişməsinin ticarət xüsusi çəkiləri və həmin ölkələrdə inflyasiya nəzərə alınmaqla həndəsi ortalamasını əks etdirir. Yəni milli valyutanın bir neçə valyutaya nəzərən orta çəkili dəyişmə indeksidir.

"Report"un analitik qrupu hesab edir ki, manatın real effektiv məzənnəsi üçün 85-90 bənd diapazonu qənaətbəxş səviyyədir. Dekabr ayının yekununda da real effektiv məzənnədə artım olacağı proqnozlaşdırılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "2698 cinayət törətmiş 1028 cinayətkar qrup zərərsizləşdirilib" - Ramil Usubov

**2017-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26 min 113 cinayət qeydə alınıb.**

APA-nın məlumatına görə, bu barədə Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında daxili işlər naziri, general-polkovnik Ramil Usubov bildirib.

Nazir deyib ki, qeydə alınan cinayətlərin 93,1 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 86,3 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,7 faizini ağır və xüsusilə ağır növlər təşkil edib.

Profilaktik iş sahəsində davam etdirilən tədbirlərlə ötən il cinayətlərin ümumi sayı 2016-cı illə müqayisədə 2,7 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlər 9, qəsdən adam öldürmələr 9,5, quldurluqlar 23,6, soyğunçuluqlar 16,6, dələduzluqlar 11,8, hədə-qorxu ilə tələb etmələr 10,5, xuliqanlıqlar 15,1, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 12,5, yol-nəqliyyat hadisələri 8,6, qəzalarda ölənlərin sayı 1,2, xəsarət alanların sayı 14,2 faiz azalıb.

Peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 3,6, ağır və xüsusilə ağır cinayətlərin açılması 2,8, quldurluqların açılması 8,6, soyğunçuluqların açılması 5,5, hədə-qorxu ilə tələb etmələrin açılması 0,3, oğurluqların açılması 6,4, dələduzluqların açılması 2 faiz yaxşılaşıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlər üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri də davam etdirilərək 418 cinayətin açılması təmin edilib. "Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə 624 cinayət açılıb, piyadaların vurulması faktları da daxil olmaqla, 18.132 yol-nəqliyyat hadisəsi aşkarlanıb, axtarışda olan 84 avtomobil saxlanılıb.

İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 76 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 39 şəxsin yeri müəyyən olunub. Bütövlükdə, axtarış işinin göstəricisi 71,4 faiz təşkil edib.

Nazir qeyd edib ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 2698 cinayət törətmiş 1028 cinayətkar qrup zərərsizləşdirilib. Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı həyata keçirilən tədbirlərlə qanunsuz dövriyyədən 944,5 kiloqram narkotik vasitə çıxarılıb, 78 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz olaraq, kultivasiya edilən və yabanı halda bitən 175 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinin və bu cinayətin qurbanlarının müəyyən edilməsi üzrə Milli Fəaliyyət Planı əsasında görülən işlər də ardıcıl olub. Nəticədə 142 insan alveri və 6 məcburi əmək cinayəti müəyyən edilib, 17 nəfərdən ibarət 8 cinayətkar qrup zərərsizləşdirilib. Qurbanların müdafiəsi, hüquqlarının bərpası və sosial reabilitasiyası üzrə fəaliyyət çərçivəsində 71 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 32 min 500 cinayət işinin istintaqı aparılıb ki, onlardan 84 faizi daxili işlər orqanları müstəntiqlərinin icraatında olub. İstintaqı tamamlanmış 9.085 cinayət işi ittiham aktı ilə məhkəmələrə göndərilib. Vətəndaşlara dəymiş maddi ziyanın ödədirilməsi 2016-cı illə müqayisədə 14,5 faiz yaxşılaşaraq 84,9 faiz təşkil edib.






# SOCAR borca görə "Palmali Holdinq"in 14 gəmisini müsadirə edib

"Palmali Holding" SOCAR və "LUKoil" şirkəti tərəfindən "qara siyahı"ya salınıb.

"APA-Economics"in Türkiyə mediasına istinadən verdiyi məlumata görə, buna səbəb dünyanın ən böyük tanker donanmasına malik olan şirkət ilə SOCAR və "LUKoil" arasında uzun müddətdir baş verən məhkəmə çəkişməsidir.

Məlumata görə, dünyanın ən irihəcmli xam neft istehsalçısı olan "LUKoil" və bu şirkətin törəmələri "Palmali" şirkətlər qrupunun törəməsi "Palmali Denizcilik" ilə neft daşıması üzrə müqavilələrə xitam verib.

Bununla yanaşı, SOCAR da "Palmali"yə məxsus gəmilərin emal zavodlarına və müəssisələrinə girişinə qadağa qoyub. "Palmali Denizcilik" şirkəti borclarını vaxtında ödəmədiyinə görə SOCAR-ın şirkətə məxsus 14 gəmini öz mülkiyyətinə keçirdiyi bildirilir.

Qeyd edək ki, bir müddət öncə "Palmali Holdinq" ikinci dəfə "LUKoil" şirkətinin törəmə müəssisəsi olan "Litasco"nu məhkəməyə verib və 2 mlrd. dollar məbləğində təzminat tələb edib.

# Aynur Camalqızı Kəramətdən və Xəlil Rzadan yazdı

## "Xəlil Rzanı söyən mənim atamı söyür"

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camal son günlər müzakirə olunan bir mövzuya münasibət bildirib. Müsavat.com A. Camalın facebook səhifəsində yayımlanan həmin münasibət yazısını təqdim edir:**



"Dostlar, təəssüflər olsun ki, Kəramət Böyükçölün (gənc yazar teleqraf.com-da çalışır-red.) son məlum facebook statusunu çox gec - yanvarın 15-də gördüm. Keşkə, tez görsəydim, həmən sildirərdim, sözümdən çıxmazdı və gərəksiz, zərərli müzakirələr bu qədər uzanmazdı. Öncədən deyim ki, Kəramətin yazdıqlarının tamamilə əleyhinəyəm, bölüşmürəm, pisləyirəm. Yazmamalıydı. Amma nəzərə alın ki, bizim media qrupunda hər gün sosial şəbəkələrdə nə etdiyini, nə yazdığını izləməyin mümkünsüz olduğu qədər jurnalist çalışır. Mənim onların yazdıqlarını izləməyə fiziki imkanlarım çatmaz. Bu bir. İkincisi, mən hər işçinin işdən kənar etdiklərinə cavabdeh deyiləm. Elə bir rentgen aparatımız da yoxdur ki, nə düşündüklərini, nə yazdıqlarını öncədən öyrənə biləк. Sosial şəbəkələrdə hansısa lazımsız, ziyanlı bir fikir rastıma çıxanda dostcasına münasibətimi bildirirəm, rəyimə hörmət olunur və silinir. Amma indi baxıram ki, Kəramətin yazdıqlarını qəbul etməyənlər onun iş yerini və məni də olaya qatmağa düşük cəhd göstərirlər. Dostlar, əminəm ki, Kəramət bir kafedə kiminləsə dalaşıb polisə düşsə, məni qınamazsız. Amma facebookda yazdığı statusa görə mən də hədəf seçilirəm. Niyə? Hər kəsin öz fikirlərini ifadə etmək hüququ var. Və hər kəs özünü ifadə edir. Mən sosial şəbəkələrdə yalnız öz yazdıqlarıma cavabdehəm və öz fikirlərimə görə məsuliyyət daşıyıram. Amma baxıram, mənimlə işləmək, Teleqraf Media Qrupunda təmsil olunmaq istəyi ilə dəfələrlə müraciət etmiş bəzi həmkarlarımız da ağzının köpüyünü dağıda-dağıda məni ittiham edir. Oxuyub gülümsəyirəm...

Nəhayət, Xəlil Rza haqqında... Xəlil Rza bu xalqın və bu dövlətin dəyərlərindən biridir. Mən hələ uşaq idim. Atam danışırdı ki, Pedaqoji İnstitutda təhsil alarkən Xəlil Rza adlı müəllimləri varmış. Auditoriyada rusca danışan tələbələri cərimə edər, dərsdən çıxararmış. Sovetin asıb-kəsən vaxtından, milli azadlıq hərəkatının hələ işartıları olmayan illərdən danışıram mən. Bizim evimizdə Xəlil Rza atamın danışdığı ən sevimli mövzulardan biri idi və mən ağlım kəsəndən o böyük şəxsiyyəti, yumruq boyda ürəyində Azərbaycanın azadlıq arzularını daşıyan o böyük insanı sevmişəm. Millətçiliyini, azərbaycançılığını, türkçülüyünü, insanpərvərliyini, ruhunu, qəlbini, işığını... sevərək böyümüşəm. Ona layiq olmadığı bir söz deyən hesab edirəm ki, mənim inanclarımı, sevdiklərimi, dəyərlərimi, atamı söyür. O kişinin böyüklüyü ondadır ki, övladını müharibədən, hətta atəşkəs dövründə hərbi xidmətdən gizlədənlərdən fərqli olaraq, oğlunu - ciyərparasını Qarabağa göndərdi və oğlu Təbriz Qarabağ savaşında şəhid oldu. Şəhidin atasında səhv axtarmazlar, Kəramət! Şəhidin atasının əllərini, ayaqlarını, uyuduğu torpağı öpərlər... Allah Atam Xəlil Rzaya da, şəhid qardaşım Təbrizə də qəni-qəni rəhmət eləsin! Onların arzuları, xəyalları çin olsun!"

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018

# İsa Qəmbərin sağlıq durumu yaxşılaşır, hökumət məsrəfləri üzərinə götürür

## "Müalicələr davam edir, müsbətə doğru dinamika var"

**"İsa Qəmbərin əməliyyatı dünyada ola biləcək ən ideal, həssas şəkildə həyata keçirilib". Bu haqda musavat.com-a açıqlamasında sabiq spiker, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərin həkimi, kardioloq Firdovsi İbrahimov deyib. Onun sözlərinə görə, İ.Qəmbərin müalicəsi hazırda davam edir və o, Mərkəzi Klinik Xəstəxananın kardioreanimasiya şöbəsindədir: "Müalicələr davam edir. 3 gün boyunca xüsusi nəzarət altında olacaq. Müsbətə doğru dinamika var, amma durumu öz əhəmiyyətini qoruyur".**

F.İbrahimov eyni zamanda xatırlatdı ki, İ.Qəmbərin öncə bir ürək damarı, daha sonra isə digəri açılıb. Ardınca isə stend qoyulub. Hazırda durumu stabil olan sabiq spikerin huşu yerində, təzyiqi isə normadadır: "Xəstəxanaya gətirilən durumu çox kritik olduğu üçün riskimiz ən azı 48 saat davam edir. İnfarktla bağlı durum çox həssasdır, onunla bağlı konkret bir söz demək olmur. Amma ürəyinə stend qoyulandan sonra vəziyyət müsbətə doğru gedib. Ehtimallarımız durumun daha da yaxşı olacağı ilə bağlıdır".



İ.Qəmbərin həyat yoldaşı Aida Qəmbər isə hazırda onun durumunun qənaətbəxş olduğunu dedi. Dünən gün ərzində bir çox dostları və ailə yaxınları ona xəstəxanada baş çəkiblər.

**"Əgər İsa Qəmbərin xaricdə müalicəsinə ehtiyac yaranarsa, dövlət lazımi dəstək verəcək". Bunu APA-ya açıqlamasında hakim Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. İ. Qəmbərə şəfa dilədiklərini, cansağlığı arzuladıqların bildirən S. Novruzov qeyd edib ki, Azərbaycan prezidenti İlham Əliyev, o cümlədən birinci vitse-prezident Mehriban Əliyeva, Heydər Əliyev Fondu ölkə vətəndaşlarının müalicəsi, həmçinin xaricdə müalicəsinə ehtiyac olan zaman müvafiq dəstəyin göstərilməsi ilə bağlı addımlar atır:** "Kimliyindən asılı olmayaraq, müraciət edən bütün Azərbaycan vətəndaşlarına - istər incəsənətdə, istər siyasətdə, istər digər sahələrdə çalışan şəxslər olsun - müvafiq dəstək göstərilir. İsa Qəmbər də Azərbaycan vətəndaşıdır. Onun müalicəsinə dəstək verilməsinə ehtiyac olacaqsa, dövlət bu sahədə hər cür dəstək verəcək".

**İ.Qəmbərin ailəsindən bu təklifə münasibət öyrənmək istədik. İ.Qəmbərin həyat yoldaşı Aida Qəmbər "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu barədə hər hansı məlumatı yoxdur və ilk dəfə bunu bizdən eşidib:** "Nə deyim? Çox sağ olsunlar. Başqa sözüm yoxdur".

Müsahibimiz İ.Qəmbərin səhhətinin qaydasında olduğunu və sabah (bu gün) xəstəxanadan çıxacağını dedi.

Qeyd edək ki, Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq sədri İsa Qəmbər ötən həftə ürəyində yaranmış problemlə əlaqədar Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib. Onun ürəyinə stendlər qoyulub, hazırda həkim nəzarətindədir.

**❑ Sevinc TELMANQIZI ,
Musavat.com**

# Partiya sədrləri İsa Qəmbərdən danışdılar, şəfa dilədilər

## Siyasilər onu "tarixə adını yazdırmış siyasətçi", "dünya malında gözü olmayan insan" adlandırdılar



Mirmahmud Mirəlioğlu



Sərdar Cəlaloğlu



İqbal Ağazadə



Tural Abbaslı

**Milli Məclisin keçmiş sədri, Müsavat Partiyasının sabiq başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər ürəyində narahatlıq yaranması səbəbindən artıq üç gündür xəstəxanada müalicə alır. Bir sıra müxalif partiyaların sədrləri İsa Qəmbəri ziyarət edib-etmədikləri barədə sualımıza cavabda onunla bağlı fikirlərini də "Yeni Müsavat"a bildirdilər.**

**KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, İsa Qəmbərlə bağlı xəbəri eşidən kimi özünə zəng edib. Lakin danışmaq mümkün olmayıb: "Pənah Hüseynlə məsləhətləşdik ki, reanimasiyadan çıxdıqdan sonra gedərik. Allahdan şəfa tapmasını arzu edirik. Həm həkimlərimizə, həm də dualarımızın qəbul edilməsinə inanırıq. İsa Qəmbər Azərbaycan siyasətində və tarixində özünü təsdiq eləyib. Dəsti-xətti olan, Azərbaycan siyasətində möhürünü vurmuş adamdır. İnşallah, özünün iştirakı ilə böyük yubileylərində geniş danışarıq".

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, İsa Qəmbərin xəstələnməsi xəbərini eşidən kimi ona zəng edib, lakin cavab olmayıb:** "Həm "keçmiş olsun" demək, həm də nə baş verdiyini soruşmaq istəyirdim. Sonra öyrəndim ki, reanimasiyadadır. Ona görə də mən bir həkim kimi hesab edirəm reanimasiyada olan xəstələrin yanına getmək onun səhhətinə heç də kömək etmir. Gərək o, reanimasiya dövrünü sakit vəziyyətdə, yorucu hallarla üzləşmədən keçirsin. İsa bəyin yanına getməməyim bununla bağlıdır. Reanimasiyadan çıxanda gedəcəyəm. Telefonuna keçmiş olsun mesajımı, şəfa diləyimi çatdırmışam. İsa Qəmbər təkcə mənim siyasətçi həmkarım deyil, həm də dostumdur. Uzun illərdir aramızda qarşılıqlı səmimi dostluq münasibətləri var. Bəzən siyasi məsələlərə münasibətlərimizdə bir-biri ilə uyğun gəlməyən yanaşmalar olsa da, bu, heç zaman şəxsi dostluq münasibətlərimizə problem yaratmır. Azərbaycan siyasətçiləri arasında özümə ən yaxın hesab elədiyim adamlardan biri İsa Qəmbərdir. Düşünürəm ki, o da məni özünə bu cür yaxın hesab edir. İsa bəy həddən artıq həyatsevər, zarafatcıl, vətənini, xalqını sevən şəxsiyyətdir. Onun həddən artıq siqaret çəkməsi mənfi xüsusiyyətidir. Mən həmişə ona demişəm ki, bu qədər siqaret çəkmək səhhətinə ciddi təsir göstərəcək. Bir həkim kimi də bu barədə fikirlərimi İsa bəyə demişəm. İsa Qəmbərin uzun müddət siqaret çəkməsi, görünür, ürəyində problem yaradıb. İsa Qəmbər Azərbaycan siyasətində Əbülfəz Elçibəydən sonra Azərbaycan müxalifətinin liderliyini edən və bütün qüvvələri qəbul edə bilən, liderə lazım olan bir çox xüsusiyyətlərə malik, təmkinli, xarizmalı siyasətçidir. Açığını deyim, mən İsa Qəmbərə hazırda Azərbaycan müxalifətinin yeganə lideri kimi baxıram. Yer üzündə qüsursuz insan yoxdur. İsa bəy də qüsurlardan tamamilə xali deyil. Qüsuru odur ki, ətrafına həddən çox inanır, ətrafına daha çox bağlanır, hər kəsi özü kimi zənn edir. Mən İsa bəyi çox pozitiv şəxsiyyət kimi dəyərləndirirəm. O, dünya malında gözü olmayan, gözütox insandır. Prezidentlik səlahiyyətini yerinə yetirib, Milli Məclisin sədri olub. Təsəvvür edin ki, onun şəxsi evi yoxdur, atasından qalma evində yaşayır. Evində olmuşam, çox sadə, dəbdəbədən tamamilə uzaq evdir. İsa bəy geyimində, davranışında, hətta yeməyində heyrət ediləcək səviyyədə sadədir. O, sözün həqiqi mənasında təbii ziyalı siyasətçidir. Bu da onun ruhən azad insan olmasından irəli gəlir. Allah İsa bəyə şəfa versin".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə dedi ki, dostu Pənah Hüseyn vasitəsilə İsa Qəmbərə keçmiş olsun mesajını çatdırıb:** "Ciddi xəstəlik deyil. Ürəyə stend qoyulması bugünkü tibdə elə də ağır və qorxulu deyil. İnşallah, tezliklə sağalıb evinə gedər. Allah şəfasını versin. İsa Qəmbər Azərbaycan siyasətində 1988-ci ildən indiyə qədər yerindədir. Bəzi müsavatçılara görə, İsa Qəmbər Azərbaycan siyasətinin gələcəyidir".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, İsa bəyin səhhətində narahatlığın yaranmasından üzülüb:** "Buradan sizin vasitənizlə İsa bəyə uca Allahdan şəfa diləyirəm və əminəm ki, tez bir zamanda ayağa qalxaraq siyasi fəaliyyətini qaldığı yerdən davam etdirəcək. Bu barədə ilkin məlumat alan kimi maraqlandım və yayılan məlumatlarda da qeyd olunurdu ki, hər şey normaldır, ciddi narahatlığa əsas yoxdur. Mən tibbi baxımdan həmin anda İsa bəyi ziyarət edərək onu narahat etməyin doğru olmadığını düşündüm. Çünki ürək problemi elədir ki, xəstə gərək istirahət etsin və onu yoracaq işlərdən uzaq dursun. Ancaq yenə də İsa bəyin mobil nömrəsinə SMS vasitəsilə "Keçmiş olsun" diləklərimi göndərdim. Sonra sosial şəbəkələrdə ziyarətin mümkün olduğunu gördük və yaxınları ilə əlaqə saxlayaraq ziyarət saatlarını öyrəndik. Bu gün (dünən- red.), inşallah, gedib ziyarət edəcəyik, ümid edirəm ki, özü ilə görüşə biləcəyik. İsa bəy insan kimi öz dəyərləri və prinsipləri olan və bu dəyərlər çərçivəsində yaşamağa çalışan biridir. Kifayət qədər təmkinli və səbirli bir siyasətçidir. Əgər hər hansı məsələ ilə bağlı qərar verməlidirsə, o məsələ üzərində xeyli düşünər, müxtəlif variant və imkanları dəyərləndirərək qərar verər. Bəzən bu proses nəzərdə tutulduğundan belə uzun çəkir və bu da bəzi hallarda çevik addım atmağı gecikdirir. Xaraktercə bugünkü məqamdan daha çox gələcək barədə düşünür və atılacaq addımların gələcəkdəki nəticələrini hesablamağa üstünlük verir. İstənilən məsələ ilə bağlı digərlərinin də mövqelərini dinləməklə yanaşı daha çox özü qərar verməyə çalışan və verdiyi qərarı sonuna qədər müdafiə etməyə çalışan bir siyasi şəxsdir. Yəni İsa bəyi aldığı qərardan döndərməyə çalışmaq çox ağır və çətin bir işdir. Mən həmişə o fikirdə olmuşam ki, İsa bəy tarixə adının necə düşəcəyi barədə düşünən bir siyasətçidir. Təbii ki, bu da onun seçimidir və bizə də hər kəsin seçiminə hörmətlə yanaşmaq düşər. Həmçinin qənaətimə görə, o, siyasi hədəflər naminə hansısa qurbanların verilməsindən çəkinən biridir. Siyasi riskləri və riskli gedişləri o qədər sevmir, hər şeyin əvvəlcədən ölçülüb, hesablana bilməsindən yanadır. Mənim bu xarakteristikam sırf subyektiv yanaşmamdır. Bu fikirlərlə özü daxil, kimlərsə razılaşmaya da bilər".

**T.Abbaslı vurğuladı ki, İsa Qəmbər Azərbaycan siyasi tarixinə adını yazdırmağı bacarmış bir siyasi xadimdir. Onun siyasi fəaliyyətini və kimliyini görməzdən gəlmək mümkün deyil:** "İsa Qəmbər həmçinin mənim və ətrafımdakı bir çox gənclərin bir siyasətçi kimi formalaşmasında bu və ya digər formada rolu olmuş insandır. Bizlər bunu danmaq və üzərimizdə haqqı olanlara qarşı haqsızlıq etmək niyyətində deyilik. İsa bəyə tezliklə sağalmağı arzulayıram".

**❑ Etibar SEYİDAĞA,
❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10(6899) 16 yanvar 2018

# Ziya Məmmədovu həbsə göndərmək istəyirlər - keçmiş ortağından şok açıqlamalar

## Hafiz Məmmədov sabiq naziri və Eldar Mahmudovu dövlət səviyyəsində reketlikdə ittiham edir: "Ziya Məmmədov xüsusi təyinatlılarla birgə..."

**Ziya Məmmədovla bağlı məsələ ciddi bir mərhələyə gəlib çıxıb. Belə ki, onun ən yaxın adamı, ortağı, inandığı bir şəxs olan "Hafka" ləqəbli iş adamı Hafiz Məmmədov mətbuata yazılı açıqlama verib. Yazıb ki, 2014-cü ilin isti iyun günündə Azərbaycan paytaxtının mərkəzində Ziya Məmmədovun başçılığı ilə keçmiş Milli Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlı bölməsinin böyük bir dəstəsi onun oğlu Kənan Məmmədovun olduğu maşının qabağını kəsib.**



Maşından düşən Ziya Məmmədov xüsusi təyinatlıların əhatəsində oğluna yaxınlaşıb və atasını axtardığını deyib. Bakının ortasında Ziya Məmmədovun cinayətə bərbər qanunsuzluğu barədə "Hafka"ya oğlu məlumat verəndən sonra o, Ziya Məmmədovu arayıb. Ziya Məmmədov isə ona məsləhət görüb ki, Bakıdakı məşhur hotellərdən birinin konfrans zalına gedib "Bahar" yatağının işlənilməsi ilə bağlı səlahiyyətləri təhvil versin. "Hafka" deyilən ünvanda olub və özünün ən bahalı layihəsindən Ziya Məmmədovun məsləhəti ilə onun oğlu Anar Məmmədovun rəhbərlik etdiyi şəxslərin xeyrinə imtina etməli olub. "Hafka" yazır ki, sonradan aydınlaşdırıb ki, MTN xüsusi təyinatlılarını birbaşa Eldar Mahmudovun əmri ilə hazır vəziyyətə gətiriblər və Ziya Məmmədovun başçılığı altında yolkəsənliyə yollayıblar.

"Hafka"nın açıqlamasında Ziya Məmmədovla bağlı olduqca sensasion məqamlar var. Yazıda sadalanan faktların bir çoxu təsdiqini taparsa, sabiq naziri çox ciddi hüquqi problemlər gözləyir. Baş verən böyük qanunsuzluqlara görə Ziya Məmmədovu həbsə aparan bir prosesin əsası qoyula bilər. Yada salaq ki, Ziya Məmmədov 11 ay əvvəl vəzifədən azad olunub. O, nazir portfelini itirən ərəfədə deyirdilər ki, könlünü almaq üçün onu səfir, müşavir və ya digər başqa vəzifəyə alacaqlar. Amma bunların heç biri olmadı. 11 aydır bunlar baş vermir, əksinə, mal varlığını, biznesi ilə bağlı mövqelərini itirməkdədir. Məmmədovlarla bağlı vəziyyət o qədər kritikdir ki, hətta oğlu Anar Məmmədov belə ölkədən qaçmaq məcburiyyətində qalıb. Ziya Məmmədovla bağlı ortaya çıxan bu situasiya nədən xəbər verir? "Hafka"nın sabiq ortağı ilə bağlı getdikcə daha ilginc məqamları açıb ortaya qoyması nələri dəyişə bilər? Məsələ o dərəcədə ciddidir ki, Ziya Məmmədovu dəmir barmaqlıqlar arxasına belə apara bilər.

**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, Hafiz Məmmədov özünü zərərçəkən hesab edirsə və ona qarşı baş verənləri cinayət tərkibli hadisə olduğunu düşünürsə, həmin vaxt hüquq-mühafizə orqanlarına müraciət etməli idi:** "2014-cü ildə bu hadisə baş verəndə hüquq-mühafizə orqanlarına müraciət etməli idi. Cavab alsaydı ki, bu, mülki xarakterli məsələdir, bu halda məhkəmə qaydasında iddia qaldırmalı idi. Onun həmin vaxt müraciəti daha məntiqli olardı. Mümkündür ki, Hafiz Məmmədovun o dövrdə hüquq-mühafizə orqanlarına müraciət etməməsi üçün əlində hansısa məqamlar olub. Amma "Hafka" o qədər də zəif adam olmayıb ki, kimsə ondan hədə-qorxu gəlməklə müəyyən əmlaklarını əlindən alsın. Hesab edək ki, həmin günlərdə zəif durumda olub və haradasa hesab edib ki, Eldar Mahmudovla Ziya Məmmədov yaxın dostdurlar, müraciətləri əbəs olar. Bu halda sual yaranır ki, bəs indi niyə bu müraciətlərini yazılı şəkildə mətbuata ötürür? Niyə hüquq-mühafizə orqanlarına müraciət etmir?"

**M.Hacıyev bildirir ki, Ziya Məmmədovun MTN xüsusi təyinatlılarından istifadə etməsi təsdiqlənərsə, barəsində Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət işi başlana bilər:** "Xüsusi təyinatlılardan Eldar Mahmudovun, onun müavinlərinin belə öz şəxsi məqsədləri üçün istifadə etməsinə ixtiyarları çatmırdı. Əgər belə hal olubsa, xüsusi təyinatlı dəstədən, məxfi əməliyyat xidmətinin əməkdaşlarından şəxsi məqsədlər üçün istifadəsi təsdiqlənsə, barələrində cinayət işi başlanmalıdır. Bu, birbaşa cinayət tərkibli əməldir. Ziya Məmmədov həmçinin bu əmələ yol veribsə, istintaqa cəlb oluna bilər".

Yada salaq ki, bu, Ziya Məmmədovla Eldar Mahmudovun adlarının qoşa çəkildiyi ilk cinayət xarakterli məlumat deyil. Eldar Mahmudov vəzifəsindən çıxarılandan sonra belə xəbərlər vardı ki, Ziya Məmmədov hər ay ona 1-2 milyon manat dollar xərac ödəyib. Bu məlumatlar da bu günə qədər təkzib olunmayıb. Belə nəticəyə gəlmək olar ki, xərac ödəyən bir nazir xərac alan nazirdən öz şəxsi problemlərinin həlli üçün dəstək istəyib. Dəstək isə dövlətin gücünü şəxsi problemlərin həlli istiqamətində istifadəsi şəklində verilib. Bu, olduqca böyük cinayətdir və dövlətin adına xələl gətirən məsələdir. Bu baxımdan Hafiz Məmmədovun söylədiklərinin araşdırılması zərurəti olduqca vacibdir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Binəqədi İcra Hakimiyyətinə xüsusi istintaq qrupu göndərildi

## Xələddin İsgəndərovun başı üzərindəki təhlükə böyüyür

**Binəqədi Rayon İcra Hakimiyyətinə xüsusi istintaq qrupu göndərilib. Bu barədə redaksiyamızı bilgiləndirən mənbə bildirib ki, istintaqçılar rayon ərazisində aparılan tikintilərin qanuniliyini, ekologiyaya vurulan ziyanla bağlı görülən tədbirlərin müvafiq qanunvericiliyə uyğun olub-olmaması və rayonun rəhbər vəzifəli şəxslərinin qəbul etdikləri qərarların qanunlarla uzlaşıb-uzlaşmamasını yoxlayırlar.**



Qaynağımız deyib ki, istintaq qrupu Binəqədi İcra Hakimiyyətində araşdırmalara başlayarkən icra başçısı Xələddin İsgəndərov Almaniyada müalicədə olub. Onu araşdırmalarla bağlı müalicəsini yarımçıq buraxıb geri qayıtmağa məcbur ediblər.

Başçının Almaniyaya müalicəyə getməsi haqda "Yeni Müsavat"ın əvvəlki saylarında xəbər vermişdik. Bildirilirdi ki, X.İsgəndərov illərdir ki, baş ağrılarından əziyyət çəkir və ildə 1 dəfə Almaniyada müalicə olunur. Başçı geri qayıtsa da, hələ də rəsmi olaraq işə çıxmır.

Təcrübəli müstəntiqlərdən ibarət qrup vaxtilə təcili yardım stansiyası üçün inşa edilən və tikintisi yarımçıq qalan binanın həyətində aparılan qanunsuz tikintilər və Zeytunluq deyilən ərazidəki ağacların kəsilməsi, Azadlıq prospektində yaşıllıqların məhvi ilə bağlı faktlar toplayır, rayon sakinləri sorğu-sual olunur. Bu günə qədər Binəqədi Rayon İcra Hakimiyyətinin bir neçə səlahiyyətlisinin də rayonda baş verən cinayət xarakterli əməllərlə bağlı dindirildiyi bildirilir. Qeyd olunur ki, rayon icra hakimiyyətinin yaxınlığındakı "Favorit" mağazası ilə üzbəüz aparılan tikinti işləri də bir neçə gün əvvəl dayandırılıb. Qaynağımız bildirib ki, istintaq qrupu yanvarın 5-6-da Binəqədi rayonuna ezam olunublar və bu günə qədər topladığı çox ciddi faktlar var.

Yada salaq ki, X.İsgəndərov bir müddət əvvəl ətrafındakıları başına toplayaraq rayon ərazisində satılan torpaq sahələri ilə bağlı sənədləri təcili səliqəyə salmalarını tapşırıb. Qanunsuz tikintilərə mübarizə aparmaq görüntüsü yaratmaq üçün addımlar atılması göstərişini verib. Bundan sonra rayonun Sulutəpə qəsəbəsində söküntü işlərinə başlanıb. Tikinti aparanlar başçının əraziyə göndərdiyi rayon təsərrüfat şöbəsinin müdiri Qüdsi Bayramova, başçının qardaşı oğlu Valeh İsgəndərova deyiblər ki, işə başlamazdan əvvəl onların nümayəndələrini razı salıblar. Buna baxmayaraq, tikintilərin sökülməsinə verilmiş göstərişin icrası bəzi ünvanlarda baş tutub. Narazı qalan 100-ə yaxın rayon sakini Sulutəpə bələdiyyəsinin qarşısına toplaşaraq icra başçısının qanunsuz göstərişinin qarşısının alınmasını tələb ediblər. Rayon sakinləri iddia edir ki, Xələddin İsgəndərovun söküntü işlərini gerçəkləşdirən dəstələrinə ümumi rəhbərliyi rayon təsərrüfat şöbəsinin müdiri Qüdsi Bayramov həyata keçirir. Atası Həsən Bayramov Binəqədi seçki dairəsinin sədridir. Həsən Bayramov Azərbaycan Beynəlxalq Universitetində Elşad Abdullayevin müavini olub. Qüdsi Bayramov əvvəl Binəqədi Gənclər və İdman İdarəsinin müdiri olub. İddiaya görə, Binəqədi rayonu ərazisində aparılan bütün tikintilərdən pullar Qüdsi Bayramovda toplanır. Vətəndaşın tikinti aparmağa sənədi var, yoxdur, bu, Qüdsi Bayramovu maraqlandırmır. Deyir ki, tikinti aparılırsa, rəsmi icazə ilə yanaşı, qeyri-rəsmi icazə də alınmalı, buna görə pul verilməlidir. Verilmirsə, vətəndaşı tikinti aparmağa qoymurlar, işinə mane olurlar. Tikinti-söküntü ilə əlaqəli maliyyə məsələlərinə Sulutəpə qəsəbəsində Ramin, Fuad, Azər, Biləcəridə Orxan, Novxanıda Rəşad, Binəqədi kəndində Pərviz, Zaur, Arif nəzarət edirlər. Orxan başçının vaxtilə sürücüsü olan Azər Kazımovun oğludur. 26 yaşlı Orxan Kazımov Biləcəri qəsəbəsi icra nümayəndəsinin müavinidir. Bu şəxslərin qeyri-rəsmi icazəsi olmasa, kimsə tikinti apara bilməz. Binəqədi rayonunda vəziyyət bələdir və əhali arasında da haqlı narazılıqlara səbəb olur. Başçı rayonda vəziyyəti sanki bilərəkdən gərginləşdirməyə, xalqı ayağa qaldırmağa çalışır. Xatırladaq ki, Binəqədi rayonunun 6-cı mikrorayon ərazisində yerləşən zeytun bağının bir hissəsi məhv edilib və həmin ərazidə tikinti işləri aparılır. Mətbuatda yayılan xəbərlərdən belə aydın olub ki, Heydər məscidinin yaxınlığında zeytun bağının bir hissəsinin məhv edilərək, yerində tikinti işlərinə başlanılması prosesinin arxasında birbaşa olaraq Binəqədinin icra başçısı Xələddin İsgəndərov dayanır. Məhz icra başçısının birbaşa tapşırığı ilə əraziyə ağır texnika yeridilərək ağaclar məhv edilib, ərazidə tikinti işlərinə başlanılıb. Tendensiya.com saytı yazmışdı ki, məsələ ictimailəşməsindən sonra müvafiq qurumlardan sərt reaksiyalar verilib. Zeytun bağında tikinti işlərinin dərhal dayandırılması ilə bağlı göstəriş gəlib. Binəqədi rayon prokuroru Nazim İmanov əraziyə tabeliyində olan işçilərini göndərərək, tikintinin dayandırılmasına çalışıb. Amma prokurorun bu istəyi icra başçısı Xələddin İsgəndərovun müdaxiləsindən sonra nəticəsiz qalıb. Tərəflərin bir-birinə ağır sözlər deməsi xəbəri də yayılmışdı. Görünən odur ki, Xələddin İsgəndərovu qarşıda çox çətin və ağır günlər gözləyir.

❑ **E.HÜSEYNOV**

# Fazil Məmmədov yeznəsinə milyonları necə qazandırıb...

## Namiq Quliyevin oğluna məxsus "CASPEL" MMC-nin taleyi qaranlıqdır

**Keçmiş vergilər naziri Fazil Məmmədov vəzifəsindən çıxarılandan sonra onun nazirlikdə yüksək vəzifələrə çəkdiyi yaxınları, qohumları da işdən alınıb. Bunlar arasında təzə qohum olduğu müavini Namiq Əliyev, qrup yoldaşları, həmçinin bacısının əri olan Namiq Quliyev də var.**

Qeyd edək ki, F.Məmmədov bir qayda olaraq yaxın çevrəsində olan şəxsləri nəinki Vergilər Nazirliyində işə götürməklə kifayətlənib, həmçinin onlara yüksək vəzifələr, bəzən vəzifəni aşan səlahiyyətlər verib. Belələrindən biri də yeznəsi Namiq Quliyevdir. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini işləyən Namiq Quliyev ötən ay vəzifəsindən kənarlaşdırılıb.

Xatırladaq ki, N.Quliyev Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində birinci müavin vəzifəsində işləyib. Daha sonra F.Məmmədov onu özünə vergi cinayətlərinin ibtidai araşdırılması məsələləri üzrə müşavir təyin edib. Elə bu vəzifədə işlədiyi dövrdə də nazir qaynı onu ali dövlət mükafatı almağa namizədlərin siyahısına salıb. Nəticədə 2015-ci ilin sentyabrında dövlət başçısının sərəncamı ilə ona 3-cü dərəcəli dövlət ədliyyə müşaviri xüsusi rütbəsi verilib. 2016-cı ilin fevralında isə F.Məmmədov yeznəsini müşavirlikdən azad edərək yenidən Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini postuna təyin edib. Bununla da adı çəkilən departament rəisinin müavinlərinin sayı 3-ə çatıb.

N.Quliyev nazir qaynının "səxavətindən" yalnız fəxri ad almaq üçün yararlanmayıb. Belə ki hələ ad almazdan 4 il əvvəldən - 2011-ci ildən N.Quliyevin oğluna məxsus olduğu deyilən "CASPEL" MMC-nin gətirdiyi nəzarət-kassa aparatları və POS terminalları vergi ödəyicilərinə məcburən satılıb.

"Yeni Müsavat"ın həmin vaxt əldə edərək ictimailəşdirdiyi sənədlərdən aydın olur ki, 15 noyabr 2011-ci il tarixdə Vergilər Nazirliyində nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının iclası keçirilib. İclasın 48 nömrəli protokoluna görə, komissiyaya vergilər naziri Fazil Məmmədov sədrlik edib. İclasın gündəliyində dayanan məsələ nəzarət-kassa aparatlarının yeni modellərinin dövlət reyestrinə daxil edilməsi olub. Sadə dillə desək, komissiya vergilər naziri Fazil Məmmədovun bacısı - yəni N.Quliyevin oğlunun adına rəsmiləşdirilmiş "CASPEL" MMC-nin ölkəyə gətirdiyi kassa aparatlarının satışını təşkil etmək üçün qərar verib.

Qərarı əks etdirən protokolda göstərilir ki, "4613-XXX" tipli İBM POS terminalının və "Mini-T 400 ME" markalı nəzarət-kassa aparatları qüvvədə olan texniki tələblərə cavab verdiyi üçün "Ticarət, iaşə, xidmət və digər fəaliyyət sahələrində əhali ilə nağd hesablaşmaların aparılmasında tətbiq olunan nəzarət-kassa aparatlarına Texniki Tələblər"in 2-ci bəndində nəzərdə tutulmuş 3-cü qrup kompüter uçot sistemli aktiv nəzarət-kassa aparatları qrupuna aid edilib.


Fazil Məmmədov


Namiq Quliyev

**İclasda F.Məmmədovun özü də çıxış edib. Yekun qərarda göstərilir:** ""4613-XXX" tipli İBM POS terminalının əhali ilə nağd pul hesablaşmaları aparmaqla fəaliyyət göstərən bütün obyektlərdə, o cümlədən yanacaqdoldurma məntəqələrində, "Mini-T 400 ME" markalı nəzarət kassa aparatlarının isə yanacaqdoldurma məntəqələri istisna olmaqla əhali ilə nağd pul hesablaşmaları aparmaqla fəaliyyət göstərən digər bütün obyektlərdə tətbiqinə icazə verilsin".

Elə bu "icazə"dən sonra iş adamlarının qara günləri başlayıb. Onların hamısı "CASPEL" şirkətinin satdığı kassa aparatlarını almağa məcbur ediliblər. Sahibkarlara açıq bildirilib ki, şirkət vergilər nazirinin bacısı oğlunundur, kim o aparatları alıb quraşdırmasa, vəziyyəti pis olacaq. "4613-XXX" tipli aparatın öz qiyməti 1980 manat, quraşdırılma xərci isə 520 manat təşkil edib. Beləliklə, bir kassa üçün sahibkarlardan 2500 manat alınıb. Yanacaqdoldurma məntəqələrindən isə tələb edilib ki, hər kolonkaya bir aparat qoyulsun. Yəni YDM-də 4 kolonka varsa, onun sahibi 4 aparat almalı, 10 min manat pul ödəməlidi. Hansı ki, kassa aparatlarının satışı ilə məşğul olan digər 20-dək şirkət bu aparatları 240 manata satırdılar.

"Mini-T 400 ME" aparatını isə sahəsi 50 kvadratmetrə qədər olan obyektlərə qurşadırmağı tələb ediblər, onu "CASPEL" 700 manata satıb. Başqa kassa aparatı satan şirkətlər isə analoji cihazı 150 manata satırdılar. Maraqlı burasıdı ki, "Mini-T 400 ME" aparatının istifadəsi istehsal olunduğu Rusiyada 2006-cı ildən qadağan edilmişdi.

Beləliklə də, Azərbaycana kassa aparatı gətirən 20-dək iş adamı müflis olundu, bütün bazar verildi F.Məmmədovun yeznəsi və bacısı oğlunun nəzarətinə. Bu alverdən sabiq nazir və qohumları onlarla milyon manat qazanc əldə etdilər. Sahibkarlar isə bir qədər itirdilər.

Onu da qeyd edək ki, "CASPEL" MMC qeyd olunan kassa əməliyyatına qədər dövlət satınalmalarında iştirak edərək çoxsaylı tenderlərdən qalib ayrılırdı. Məlum kassa əməliyyatından sonra onun sifarişləri getdikcə artıb. Əsas alıcısı isə əlbəttə, Vergilər Nazirliyi idi. Məsələn, 2014-cü ildə Vergilər Nazirliyi 11 mln. 273,2 min manat məbləğində informasiya-kommunikasiya xidməti alıb. Həmin məbləğin böyük hissəsi məhz "CASPEL" MMC-nin payına düşüb: 5 mln. 747 min manat.

2015-ci ildə Vergilər Nazirliyi "CASPEL" MMC ilə "195" Çağrı Mərkəzi sisteminin avadanlıqlarına texniki xidmətin göstərilməsi üçün 64 900 manat, Giriş-Çıxış Access Control sistemlərinə, səs avadanlıqları və konfrans sistemlərinə, müşahidə, yanğın və siqnalxəbərverici sistemlərinə texniki xidmətin göstərilməsi üçün 174 085 manat, Zərif müştərilərə (elektron disksiz qurğulara), zərif müştəri serverlərinə, məlumat saxlama avadanlıqlarına, UPS-lərə, printerlərə və digər korporativ şəbəkə və server avadanlıqlarına (Exchange, TMG, Legalands, Spam, Antivirus, Message, Backup serverlər) texniki xidmətin göstərilməsi üçün 365 003 manat, AVİS ehtiyat sisteminin avadanlıqlarına, elektron vergi hesab-faktura xidmətini təmin edən avadanlıqlara, "SunServerləri"nə texniki xidmətin göstərilməsi üçün 678 429 manat, İskratel ATS-ə texniki xidmətin, ümumi kompüter şəbəkəsinə rabitə xidmətinin, korporativ rabitə şəbəkəsinə telefon və kommunikasiya xidmətinin göstərilməsi üçün 896 658 manat və Oracle proqram təminatına illik dəstəyin göstərilməs üçün 300 000, "Texniki və Akis sistemi avadanlıqlarının, proqram təminatlarının, kabel çəkilişinin və quraşdırma işlərinin yerinə yetirilməsi"nin satın alınması üçün 579 129,99 manat, kartriclərin satın alınması məqsədi ilə 99 844,52 dəyərində müqavilə imzalayıb.

Ötən il də kifayət qədər bol olan qalibiyyətli tenderlərdə şirkətin sifarişçiləri arasında Vergilər Nazirliyindən əlavə, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Dövlət Sərhəd Xidməti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Müdafiə Nazirliyi və digər böyük qurumlar var.

Şirkətin İnternet saytında qeyd olunur ki, "CASPEL" Azərbaycan Respublikasının ərazisində informasiya texnologiyaları və telekommunikasiya sahəsində kompleks həll variantlarını təqdim edən ən iri inteqrator şirkətlərdən biridir. Şirkət məlumatların ötürülməsi üzrə həll variantları, proqram təminatının işlənib hazırlanmasını, İT avadanlıqları və kompüterlərin istehsalı ilə məşğul olan dünyanın qabaqcıl şirkətlərindən müasir avadanlıqların təchizini və servis xidmətini təqdim edir.

"CASPEL" şirkəti Azərbaycanın bütün ərazisini əhatə edən özünün fiber-optik şəbəkəsinə də malikdir.

Vergilər Nazirliyinin hüquqi şəxslərin elektron reyestrində yer alan məlumatdan aydın olur ki, "CASPEL" MMC-nin hüquqi təmsilçisi Quliyev Ceyhun Məhi oğludur. Himayədarı vəzifədən alınandan sonra şirkətin taleyinin necə olacağını isə yəqin ki, zaman göstərəcək.

❑ **TURQUT,**
❑ **"Yeni Müsavat"**

# Gül təkcə qəbir üstə qoymaq üçündümü?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Gitara ustası Rəmiş canlı efirdə qəribə bir ifadə işlədib. Deyib ki, "kişi arvadına gül verməz". Səbəbi açıqlamayıb. Ola bilsin, heç vaxt açıqlamayacaq da.**

Deyir, nə qədər ki, söz ağızdan çıxmayıb, o, sənin qulundur, elə ki, çıxdı - sən onun qulu. Odur ki, sözləri seçmək mütləqdir. SÖZ həm də insanı xarakterizə edir. "Kişi dilinin altındadır, danışın ki, tanınasınız" - Həzrəti Əli.

Bəlkə də bir az üstünə getsən, Rəmiş əfəndi deyəcək ki, əşi, bir zarafatdır eləmişəm. Amma gəl ki, gül dəstəsini öz xanımına o, efirdə zorla, aparıcının təkidi ilə verib. Demək, zarafat etmirmiş. Elə isə nədən içindən belə bir şey gəlsin? Gülü qadına da verməK caiz deyilsə, bəs kimə verək? Kişiyə? Yoxsa gül-çiçək yalnız qəbir üstə qoymaq üçündür?..

"Bakıda qadın kişini döydü". Bu xəbər də eyni gündə xəbər lentlərində keçib. Rəmişin sözlərinə bir növ, haqq qazandırır. Yəni kişi döyən qadına nə gül? Gülü qadına verməklə əslində elə buna işarə edilir ki, "Sən gül kimi zərifsən, zərif qal!"

Fəqət, deyildiyi kimi, kişi tipli qadınlar da var. Belələrinin cəmiyyətdəki yeri bəlkə də xanımlıqdan çox, kişi işlərində çalışmaq olardı. Niyə də yox? Özünü kişi kimi bacarıqlı, güclü sayan qadın nədən, tutaq ki, orduda xidmət eləməsin? Bəlkə orada cəmiyyətə, dövlətə daha çox faydası dəyəcək?

Təbii ki, hər şey nisbidir. Qeyd edilənlər də bütün qadınlara və ya kişilərə şamil edilməz. Amma bir şey var ki, hərə öz təbii qlafına, Allahın seçdiyi bicimə uyğun davransa, hərəkət eləsə, yaşasa, gözəl olar. Qadınının kişini döydüyü, qadına gül verməyi qəbahət sayan cəmiyyət təbii ki, sağlam deyil, öz ilahi qlafından çıxıb və təhlükəlidir.

İlahi biçimdən kənara çıxma - həmişə eybəcər görünür, çünki qeyri-təbiidir. Qeyri-təbii isə gözəl deyil. Məsələn, əzələ şişirdən kulturist qadınlar, qadın boksçular hansı kişiyə xoş gələr? İlahi qlafdan kənara çıxmalar, sapmalar həmçinin, əcaib olmaq qədər cəmiyyətə də həqarətdir. Eyni zamanda özü-özünə zülm eləməkdir. Zira, dinimizə görə, bir şey yerində deyilsə, artıq ona zülm edilmişdir.

Şəksiz ki, demək asandır. Yaşadığımız qəliz zəmanə, dolanışıq dərdinin yaratdığı əsəb gərginlikləri eyni dərəcədə qadın və kişini hər gün psixoloji sınaqlara çəkir, onları öz ilahi qlafından çıxmağa təhrik edir. Belə məqamda zərifliyi də, kişi özəlliklərini də qorumaq asan deyil. Amma mümkündür.

Bundan ötrü əlbəttə ki, ən əvvəl yaşadığımız mühitin, ictimai münasibətlərin normal axara düşməsi şərtdir. Çirkli göldə normal balıq yetişə bilərmi? Cəmiyyət də elə. Nə qədər çox çirklənibsə, bir o qədər təbii qlafında olan qadın və kişilər orada azlıq təşkil edəcək. Tərs mütənasiblik yəni.

Təsadüfi deyil ki, inkişaf eləmiş, modern cəmiyyətlərdə Azərbaycandakı kimi cinayət halları az qeydə alınır və yaxud heç alınmır. Söhbət qadının kişini döyməsindən getmir. Ümumiyyətlə, bizdəki kimi kriminal olayların çoxluğundan, cinayətlərin hər il daha qəddar xarakter almasından gedir.

Bunları önləməkdən ötrü öncə maarifləməyə ehtiyac car. O zaman qadın nədir, kişiyə də gül verməK olar - əgər bu, onda müsbət motivasiya yaradacaq, tutaq ki, kişini hansısa bəd əməldən çəkindirəcəksə. İş də ondadır ki, varlı və ya kasıb, fərq etməz, əgər insan uzun müddət həyatdan müsbət motivasiya, zövq ala bilmirsə, bu təhlükəlidir. O səbəbə ki, özünütəcridə, depressiyaya, hətta suisidlərə aparır.

Bundan qaçmağın birinci yolu ünsiyyətdir. Sosial şəbəkədəki ünsiyyət yox, canlı ünsiyyət! Yaxud yaxşılıqlar eləmək. İslam peyğəmbərinə görə (s), bəzən adi təbəssüm belə yaxşılıqdır, sədəqədir. Əsas odur nəyləsə məşğul olasan, müsbət iş görəsən, həyatı bihudə keçirməyəsən. Çünki psixoloqlara görə, beyin eyni vaxtda iki şey haqda düşünə bilmir. Sən əgər bir bədii əsər və ya Quranı-kərimi oxuyursansa, kiməsə yaxşılıq eləməyə köklənmisənsə, artıq beyində başqa, pis fikrə yer qala bilməz.

Depressiyaya, intiharlara, tənhalıq hisslərinə qarşı ən effektli vasitə elə budur - canlı ünsiyyət, yaxşılıqlar eləmək, nə iləsə məşğul olmaq! Zira, cəmiyyətdən kənar insan xoşbəxtliyi yoxdur. Əfsus ki, bunların bir çoxunu fərd, cəmiyyət olaraq yadırğamaqdayıq.

Qərəz, pozitiv olmağa çalışaq, özümüzə zülm edənlərdən olmayaq və yerimizdə olaq!..

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2017



# Şöhrətə gedən ən kəsə yol

Xalid KAZIMLI

**Bu postsovet ədəbi ənənənin özülünü 23 il öncə mərhum yazıçımız Rafiq Tağı qoymuşdu. O zaman o, qəzetimizlə əməkdaşlıq edirdi, həftədə bir dəfə ədəbi-publisistik janrda, sosial-siyasi mövzularda esse yazırdı.**

Rəhmətliyin çox gözəl qələmi vardı. Bir mövzunu atomlarına qədər xırdalamağı, ortaya yeni, heç kəsinki ilə üst-üstə düşməyən fikirlər qoymağı bacarırdı. Onda bir xasiyyət vardı, müqəddəs, toxunulmaz elan edilmiş ədəbi bütlərə qarşıydı. Arada ictimaiyyətin birmənalı olaraq, korifey, klassik ədib kimi qəbul etdiyi şəxslərin yaradıcılığında “səhvlər tuturdu”.

1995-cı ilin sonlarında Rafiq Tağı elə bir yazı yazmışdı, həyatını xalqımızın maariflənməsinə həsr edən, cəmiyyətin əyər-əskiklərini satirik dillə göstərən böyük yazıçımız Mirzə Cəlili “kollaborasionist” (düşmən tərəfə keçib öz xalqına güllə atan) adlandırmışdı. Onun bu adqoymasının şübhəsiz ki, haqsız tərəfləri yoğun idi, amma bunu sadəcə, bir təşbeh, ədəbi yozum idi və ürəyə salmamaq gərəkirdi.

Əvəzində Mirzə Cəlilin pərəstişkarları, həmyerliləri, eləcə də özünü Mirzə Cəlil məktəbinin davamçıları sayanlar Rafiqin üzərinə görünməmiş hücuma keçdilər, onu təhqir etdilər.

Bundan sonra o, nə vaxt öz adından ictimai-siyasi arenada, mətbuat dairələrində bəhs olunmasını istəyirdisə, “toxunulmaz klassiklər”in birini sərt tənqid edirdi və adı günlərlə hallandırılırdı.

Ədəbi yaradıcılığa yeni başlayan bəzi gənclər də o yolu tutdular. Bu yol millətin müsbət planda qəbul etdiyi tarixi və ədəbi şəxsiyyətləri pisləməklə, hazırda sağ-salamat olan məşhur və tanınmış simaların adını mənfi planda hallandırmaqla qalmaqal yaratmaq, öz adının çəkilməsini intensivləşdirmək və bu yolla tanınmaq, şöhrət qazanmaq yolu idi.

Onlardan elələri vardı ki, hər yazısında yeri gəldi-gəlmədi, 15-20, bəzən 30-40 tanınmış adamın adını çəkirdi. Təbii ki, o məqalənin dərc olunduğu qəzet bir neçə gündən sonra olsa da, adı çəkilən şəxslərin əlinə düşürdü. “Zərərçəkənlər”dən bəziləri hiddətlənsə də, heç bir tədbir görmürdü, bəzliləri isə həmləyə keçir, “düşməni susdurmaq”, “onun ağzını cırmaq” yolu seçir, cavab yazır, ya da müsahibə verirdilər.

Tanınmaq istəyən gənc qələm sahiblərinə də elə bu lazım idi. Siyasi arena, ədəbi mühit onlardan danışırdı, tanımayanlar da tanıyırdı ki, belə də bir cəsarətli gənc yazar var.

Ən pisi o idi ki, belə şöhrətpərəst gənclər üçün isə qoruq-qaytaq yox idi. Onlar eyni şövqlə Səməd Vurğunu, Rəsul Rzanı, Rəşid Behbudovu, Qədir Rüstəmovu tənqid edirdilər. Üzeyir Hacıbəyova dil uzadanlar olurdu. Hələ sovet vaxtında, sağlığında reputasiyası xoşagələn olmayan Süleyman Rüstəm də öz payını alırdı. Mehdi Hüseyn, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Vaqif Səmədoğlu da kənarda qalmırdı. Onsuz da həmişə tənqid olunan siyasətçilər vaxtaşırı yada salınırdı.

Bu gənclərin bir işi də vardı ki, onlar adı ətrafında qalmaqal yaranacağı gözlənilməyən simalara toxunmurdular. Əsasən o adamlara “ilişirdilər” ki, fəal züryətləri, oxucuları, pərəstişkarları var və kimsə onlardan ötrü irəli durub “ayırdetmə prosesi” başladacaq, əks-hücuma keçəcək.

Nə yazıq ki, populyarlaşmanın bu yolu hələ də şöhrətə gedən ən kəsə yol statusunu qoruyur.

Gənc yazıçı-jurnalist Kəramət Böyükçölün durub-dururkən Xəlil Rza Ulutürkün ünvanına o sayaq sözlər yazması və ona qarşı yazılanlar yuxarıda sözünü etdiyim xanədən olan vaqiədir, böyük ehtimalla.

Ancaq nə Xəlil Rza Ulutürk o sözləri haqq edir, nə də Kəramətin ucuz şöhrətə ehtiyacı var. Bu gənc son illərdə ölkəmizdə yetişən ən istedadlı yazıçılardan biridir. Onun gözəl qələmi, rəvan təhkiyəsi, unikal yanaşmaları, dibsiz səmimiyyəti var. Şöhrətə kəsə yolla çatmasına heç ehtiyacı yoxdur. Onun məhsuldar jurnalistliyinin zaman-zaman yazıçılığını üstələməsi də dərd ediləsi bir şey deyil, gərək özü də bunu kompleksə çevirməsin. Bəzən sosial şəbəkədəki qeydlərindən hiss olunur ki, o, yazıçılığının axsadığını, başqa qalmaqallı yazıçıların kölgəsi altında qaldığını düşünür.

Xəlil Rza Ulutürk haqqında isə cəmi bir söz demək kifayətdir. O, bir şəhid atasıdır, doğma, əziz oğlunu canından çox sevdiyi vətənin yolunda qurban verib. Ta nə olsun? Ona qarşı nəsə yazmağa adamın əli gəlməsin gərək...

**Son zamanlar qəfil ürək tutmaları, gözlənilmədən gələn xəstəliklərə düçar olanların sayı artıb. Hansı ki, o adamlar haqqında “sağlam adam idi, ağrımırdı, qəfil niyə belə oldu ki” söyləyirlər. Amma sonradan məlum olur ki, bu problemlər gizli şəkildə illərdir davam edirmiş. Bəs bunları vaxtında necə bilmək olar?**

# İldə neçə dəfə müayinədən keçməliyik?





**Vasif İsmayıl:** “45 yaşından sonra müntəzəm olaraq ”Check-up" üçün həkimə gedilməlidir"

**Ləman Əliyeva:** “Qadın ildə iki dəfə ginekoloq müayinəsində olmalıdır”

Xarici ölkələrdə insanlar ən az ildə iki dəfə çekap (Check-up) müayinədən keçirlər. Bununla da baş verə biləcək müxtəlif xəstəlikləri önləmiş olurlar. “Check-up” vasitəsilə xərçəngin erkən diaqnozu qoyularaq, daha tez və effektiv müalicə edilməsinə nail olmaq olur.

Döş xərçəngindən vərəmə qədər bütün xəstəliklərdən “Check-up” vasitəsilə yaxa qurtarmaq mümkündür. Ümumiyyətlə, “Check-up” erkən diaqnoz məqsədilə edilən müayinə, laboratoriya, rentgen və bütün testlərin birləşməsidir. Ancaq təəssüflə qeyd etməliyik ki, Azərbaycanda bu məsələyə biganə yanaşılır. Bizdə insanlar xəstələnməyincə həkimə müraciət etmir. Hətta çox zaman xəstələnəndə belə öz üsulları ilə müalicə almağa çalışırlar. Məhz buna görədir ki, insanlar bir az yaşlaşdıqdan sonra gənclikdə hiss etmədikləri gizli xəstəliklər baş qaldırır və çox zaman da müalicə üçün gec olur. Mütəxəssislər bildirirlər ki, böyüklər ildə iki dəfə, uşaqlar bir yaşına qədər hər ay, qadınlarsa 6 aydan bir “Check-up” müayinədən keçməlidir.

**Həkim Vasif İsmayıl bildirdi ki, insan 45 yaşdan sonra müntəzəm olaraq həkim nəzarətindən keçməlidir:** ““Check-up” müayinəsinin müntəzəmliyinin hər kəsə görə dəyişən xarakteri var. Bu insanın yaşına, həyat tərzinə görə dəyişir. Hər kəsin müəyyən yoxlanılacaq parametrləri var. Bu məsələyə çox ciddi diqqət etmək lazımdır. Sığortada olan həkim buna nəzarət edir və müəyyən bir “Check-up” qrafiki çıxarır. İnsanlar bu qrafik əsasında gedib yoxlanılırlar. Hər mədəni ölkədə bu belədir. Yəni hər kəs ağlına gəldiyi zaman gedib “Check-up” olunmur. Sadəcə olaraq, vəziyyətinə görə tənzimlənmiş “Check-up” müayinəsinə gedir. Ümumiyyətlə, hər bir insan 45 yaşından sonra müntəzəm olaraq “Check-up” üçün həkimə getməlidir. Amma orada hansı təhlilləri verəcək, bu, artıq hər bir fərdin şəxsən qərar verəcəyi bir məsələdir".

**Qadınların “Check-up” müayinədən ildə neçə dəfə keçməsinə və hansı xəstəliklərin gizlin gedə biləcəyi məsələsinə gəlincə isə cərrah mama-ginekoloq Ləman Əliyeva qadınların ildə iki dəfə müayinədən keçməsinin vacib olduğunu dedi:** “Türkiyədə və digər xarici ölkələrdə qadınlar uşaqlıq boynu xərçənginin öncədən aşkara çıxması üçün altı aydan bir və ya ən az ildə bir dəfə retrospektiv analiz verirlər. Bizdə yaşı 30-un üzərində olan qadınlardan çoxu bu analizin nə olduğunu bilmir və keçməyib. Biz təbii ki, qəbulumuza gələn xanımlara bunu başa salırıq. Hətta ola bilər ki, onun heç bir problemi, şikayəti yoxdur, sadəcə, ginekoloqun müayinəsində olur retrospektiv testindən keçir. O zaman uşaqlıq boynunun xərçəngi ilə bağlı şübhələr ortaya çıxır. Bunu öncədən biləndə müalicələr tətbiq etməklə qarşısını ala bilirik. Amma bəzən elə halda gəlirlər ki, uşaqlıq boynu xərçənginin ilkin mərhələsi olur. Qadınlar bunu gecikdirirlər. Biz qəbulumuza gələn qadınlara gücümüz çatan qədər deyir, maarifləndiririk. Qadın problemi oldu olmadı, ildə iki dəfə, altı aydan bir ginekoloq müayinəsində olmalıdır”.

**Uşaqlara gəlincə isə pediatr Günay Rəsulova bildirdi ki, maddi sıxıntıya baxmayaraq valideynlər övladlarını rutin kontrollardan və pediatr müayinələrindən mütləq keçirməlidir:** “Uşaqlara tətbiq olunmalı müayinələr və pediatr kontrolları var ki, bunlar olduqca vacibdir. Məsələn, yeni dünyaya gələn uşağa topuq testi müayinəsi edirik. Hansı ki, bu, dünyanın hər yerində tətbiq edilir. İlk 3-4 ay ərzində çanaq müayinəsi edirik. Bu da mütləq lazımdır. Uşaqdan asılı olaraq exo kardeoqrafiyası və s. aylıq kontrollar edirik. Bundan başqa, uşaqlar bir yaşdan sonra altı aydan bir, sonra isə ildə bir dəfə pediatriv müayinədən keçirilməlidir. 1, 3 və 6 yaşda da keçilməli olduğu vacib müayinələr var. Bir yaşa qədər uşaqlarda peyvənddən öncə həkim baxışı, peyvəndlərin olunması hər uşağa mütləq şəkildə tətbiq edilməlidir. Dünyanın hər yerində tibbi sığorta tətbiqinə əsasən insanların vaxtı-vaxtında həkimə getmək kimi bir üstünlükləri olur. Bizdə də dövlət tərəfindən tibbi sığorta uğurla tətbiq olunmaqdadır. Tibbi sığorta tətbiq edildikdən sonra insanlar bu barədə maddi sıxıntı çəkmədən aylıq rutinlərini yerli yerində edə biləcəklər”.

**Pediatr valideynlərin sırf maddi çətinliyə görə övladlarının müayinəsini gecikdirdiyini dedi:** “Dövlət tibbi sığortanın tətbiqindən sonra bizdə də bu cür sıxıntılar qalmayacaq. Hər bir valideyn təbii ki, övladının sağlamlığı üçün heç bir müayinədən kənarda qalmaq istəməz. Valideynlərə tövsiyə edərdim ki, maddi çətinliyə baxmayaraq, övladlarını mümkün olduqca rutin müayinələrdən və pediatr kontrollarından keçirsinlər. Həmçinin mümkün olduqca profilaktik peyvəndlər tətbiq olunmalıdır. Bir yaşa qədər uşaqlara poliklinikalarda ödənişsiz müayinələr və peyvəndlər tətbiq olunur. Ən azından bunlardan kənarda qalmaq olmaz”.

❑ Günel MANAFLI,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018

**Ötən sayımızda qeyd etdiyimiz kimi, Ermənistanın yenidən terror təşkilatı olan ASALA-nı diriltməsi ilə bağlı məlumatlar var. Beynəlxalq Əsilsiz Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksel Gülbey də bildirib ki, 1984-cü ildə ləğv edildiyi açıqlanan millətçi erməni terror təşkilatı ASALA Gürcüstanın Cavaxetiya bölgəsində "Virk-Yerkir" adı ilə yenidən qurulur.**

# Azərbaycan və Türkiyəyə ortaq təhlükə - ASALA...

## Ekspertlərə görə, iki qardaş ölkə bu terror təşkilatını nəzarətdə saxlamaq imkanındadır

ASALA-nın əsas məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ bölgələrinin də daxil olduğu bir ərazidə "Böyük Ermənistan" dövləti qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əlaqələrinin yaradılmasında onun lideri Akop Akopyanın böyük rolu olub.

Bəs hazırkı məqamda ASALA fəaliyyətə başlayarsa, Azərbaycan və Türkiyə bu terror təşkilatına qarşı necə mübarizə apara bilər?

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu Gürcüstanda terror təhlükəsinin güclü olduğunu dedi:**

"Ancaq ASALA-nın fəaliyyətə başlaması ilə bağlı məlumatlar toplusuna rast gəlməmişəm. Ermənistan milli təhlükəsizlik xidmətinin yaydığı məlumata görə, 2017-ci ildə 986 nəfərə terrorçu prizmasından yanaşaraq, ölkəyə daxil olmağa icazə verilməyib. Ermənistanın da quruluşuna bələdik və məlumdur ki, bu adamların bir qismi içəri keçməyi bacarıb. Onların da böyük əksəriyyəti İŞİD üzvləridir. 2017-ci ilin aprel ayında Ermənistanda Rusiya hərbi bazasında bir əsgəri bıçaqlayaraq öldürdülər. Bəlli oldu ki, onu öldürən erməni Yunanıstanda yaşayır və bir müddət də Suriyada terrorçu dəstəsində təlimlər keçib, dinini də dəyişib. Deməyim odur ki, İŞİD-in Ermənistana və Gürcüstana daxil olmaqda marağı böyükdür. Xüsusilə də onların Ermənistanda fəaliyyətlərini aktivləşdirməklə bağlı ehtimallar irəli sürmək olar. Səbəb odur ki, terrorçuların əsas hədəfi Azərbaycan və Türkiyədir. Onlar bizim regionda qarışıqlıq yaratmaqla Şimali Qafqaza çıxa bilərlər. Azərbaycan və Rusiya öz sərhədlərini yaxşı qoruya bilirlər. Ona görə də terrorçular Ermənistanda məskunlaşaraq, Azərbaycanı hədəfə ala bilərlər. Bunlar bəlli faktlardır, ancaq beynəlxalq ictimaiyyət buna diqqət etmir. Bu yaxınlarda məlum oldu ki, kriminal avtoritet Ruben Tatulyan Ermənistan xarici işlər nazirinin müşaviridir. Ermənistan kriminal cəmiyyətdir. Terrorçuların, kriminal avtoritetlərin orada aktivləşməsi bir faktdır. Bunun da son nəticəsi Azərbaycan və Rusiya üçün təhlükədir. Bunların qarşısını almaq üçün ilk növbədə mətbuatla işləməliyik. Qərbin oxuduğu mətbuatda belə məsələləri aktual olaraq saxlamalıyıq. Çünki biz Ermənistan dövlətinin mahiyyətini informasiyalarla Qərbə başa salmalıyıq. Onlar görməlidir ki, kriminal adamlar Ermənistanın rəsmi dairələrinə qədər daxil olublar. İstənilən İŞİD terrorçusu oraya gəlib, viza alıb, istədikləri ölkəyə gedə bilərlər. Qərb çarə qılmasa, biz daha çox Rusiya ilə əməkdaşlıq edərək, onlara qarşı gəlməliyik. Rusiyada bu təhlükədən xəbərdardırlar. Nə qədər ki, Azərbaycan və Rusiyanın əlaqələri zəif idi, Şimali Qafqazda terrorçular aktivlik nümayiş etdirirdilər. Hər iki dövlət gücləndi və əlaqələr də intensivləşdi, daha sonra Şimali Qafqazda da vəziyyət düzəldi. Ona görə də bu dövlətlə əməkdaşlıq ərazidə terrorçuluğun qarşısını almaq üçün önəmlidir".




**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev hesab edir ki, ASALA məsələsinin ortaya atılması seçki öncəsi siyasi gedişlərin göstəricisidir:** "İstər ASALA, istərsə də Daşnaksütyun və ya Suriyadan qaçıb gələn terrorçuların Ermənistan, o cümlədən Dağlıq Qarabağ ərazisində yerləşdirilməsi ilə bağlı məlumatlar var. Bu məlumatların da yayılmasının bir neçə səbəbi var. Əvvələ, seçki öncəsi gedişat edirlər. Məqsəd də odur ki, seçkidə daha çox elektorat cəlb olunsun, ictimai rəy formalaşdırılsın ki, Dağlıq Qarabağ münaqişəsi heç zaman Azərbaycanın xeyrinə həll edilməyəcək. Bunlara vasitə kimi də belə metodlara əl atırlar. Çünki Serj Sərkisyan Qarabağ münaqişəsi üzərindən öz dəstəsi ilə Ermənistanda hakimiyyəti zəbt edib. Hakimiyyətdə qalmağın metodlarından biri qorxu və belə bir təhdidin yaradılmasıdır. Təhdidin yaradılmasında da terror təşkilatlarından istifadə edirlər. ASALA, Daşnaksütyunun qolu və Suriyada olan digər terrorla birbaşa əlaqəli şəxslərlə bağlı xüsusi xidmət orqanlarında məlumatlar var. Bu məlumatlar həm Azərbaycan, həm də Türkiyə tərəfinə məlumdur. Terrorçuları tam nəzarətdə saxlamaq üçün də müəyyən metodlardan istifadə edilir. Düşünürəm ki, dünyada məşhur olan terror təşkilatlarının daxil olduğu siyahıda ASALA-nın da adı olduğu üçün bununla həm Türkiyə, həm də Azərbaycanın xüsusi xidmət orqanları lazımi səviyyədə məşğul olacaq. Hazırda da onları nəzarətdə saxlama ən ümdə məsələdir. Seçki öncəsi bu məsələnin qabardılması isə siyasi gedişlərdən qaynaqlanır".

❑ **Əli Rəis, "Yeni Müsavat"**

# ABŞ və Türkiyə Suriyanın şimalında toqquşa bilər

## Vaşinqtonun kürdləri dəstəkləməsi Ankara ilə gərginlik yaradır, Türkiyə ordusunun Afrin əməliyyatı iki dövləti üz-üzə gətirəcək

**Türkiyə ordusunun Suriyanın Afrin bölgəsi ilə həmsərhəd ərazilərə ordu topladığı bir anda məlum olub ki, ABŞ kürdlərə yeni ordu qurur. Vaşinqton bəyan edib ki, İŞİD-ə qarşı beynəlxalq koalisiya Suriyadakı müttəfiqləri ilə birlikdə 30 min nəfərlik sərhəd mühafizə ordusu qurulacaq. Təbii ki, Vaşinqtonun Suriya müttəfiqi "Suriya Demokratik Qüvvələri", yəni əslində kürdlərdir. Yeni ordu da kürdlərlə Türkiyə arasında sərhədləri qoruyacaq.**

BBC "Reuters" agentliyinə istinadən 30 minlik ordunun yarısının SDQ-dən təşkil olunacağını və bir qisminin də Suriya-Türkiyə sərhədlərində yerləşdiriləcəyini yazıb. Sərhəd qüvvələrinin birləşmələri ümumilikdə şimalda Türkiyə sərhədində, cənub-şərqdə isə İraq və SDQ qüvvələri ilə Rusiya və Suriya hökumət qüvvələrinin arasında Fərat çayı boyunca yerləşəcək.

Aydın məsələdir ki, yeni sərhəd qüvvələrinin əsas təyinatı müharibədən sonra qurulacaq kürd muxtariyyəti və ya federal üsul-idarəsinin sərhədlərini mühafizə məqsədi güdür. Əsas sərhədlər isə təbii ki, Türkiyə ilədir. Məsələ ondadır ki, Türkiyə və Suriya arasındakı mövcud 910 kilometrdən artıq sərhəd xəttinin yarıdan çoxu hazırda faktiki olaraq kürdlərin, formal adı ilə SDQ-nin nəzarətindədir. Aydındır ki, indi bu bölgədə kürd - SDQ silahlıları ABŞ patrulları ilə keşik çəkir. Ancaq savaş bitdikdən sonra sərhədlərin daha peşəkar sərhəd qüvvələri tərəfindən mühafizəsi və keçidlərin nəzarətə alınması lazımdır. Bunun üçünsə peşəkar sərhəd qüvvələrinə ehtiyac var.

Türkiyə isə bu qərardan narazıdır. Çünki Ankara sərhədlərində kürd dövləti və ya muxtariyyətinin olmasına razı deyil. Üstəlik, hazırda Türkiyə ordusu 2016-cı ildə azad edilən Əziz-Cerablus xəttinin qərbində anklav şəklində qalan Afrin bölgəsini kürdlərdən təmizləməyə hazırlaşır. Türkiyə telekanalları ordu birliklərinin və zirehli texnikaların Afrin bölgəsinə daşındığını göstərib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, yaxın günlərdə Afrinə hərbi əməliyyat başlaya bilər.

Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın isə ABŞ hökumətinin Türkiyənin tələbləri ilə terror təşkilatı PYD/YPG ilə əməkdaşlığı dayandırmaq əvəzinə yeni ordu qurmasının "əndişəverici" olduğunu deyib. Kalın deyib ki, bu addımlar YPG kimi terror təşkilatlarını leqallaşdırmağa xidmət edir. O deyib ki, belə bir vəziyyətdə Türkiyə dövləti terror qruplarına qarşı hərbi müdaxilə həyata keçirmək hüququnu özündə saxlayır.



"Reuters"ə açıqlama verən Türkiyə hökumət rəsmisi ABŞ-ın Türkiyədəki səfirliyinin məsləhətgüzarının çərşənbə günü Xarici İşlər Nazirliyinə dəvət edildiyini bildirib.

İŞİD-ə qarşı koalisiyanın mətbuat xidmətindən verilən açıqlamada isə qeyd olunub ki, yeni təşkil olunan orduda xidmət edəcək şəxslərin "evlərinə yaxın bölgədə xidmət etmələri" təmin olunacaq. Bu səbəbdən də şimal sərhədlərində daha çox kürdlər, cənubda Fərat çayı boyunca və İraq sərhədlərində isə ərəb əsilli SDQ üzvləri xidmət edəcəklər. yeni sərhəd qüvvələri peşəkar təlimlər alacaqlar, sərhəd nöqtələrini nəzarətə götürmək, əldəqayırma bombalara qarşı əməliyyatlar həyata keçirə biləcəklər.

ABŞ-ın son zamanlar kürdlərə dəstəyinin ciddi şəkildə artması Suriyanın şimalında yeni kürd dövlətinin yaradılacağı barədə xəbərlər tez-tez gündəmə gəlməyə başlayıb. Son 3 ildə, xüsusən də ötən il Pentaqon kürdləri müasir silahlarla silahlandırıb. Eyni zamanda hazırda rəsmi olaraq min nəfərdən çox Amerika hərbçisi kürdlərə təlim keçir və eləcə də Türkiyə ilə sərhəddə patrul xidməti həyata keçirir. İndi isə kürdlərin Suriyanın şimalında dövlətinin yaradılacağı xəbərlərinin ardınca sərhəd qoşunlarının yaradılması məsələsi gündəmə gəlib. Yeri gəlmişkən, ötən ilin sonlarında ABŞ hərbçilərinin SDQ-nin polis qüvvələrinin yaradılması ilə bağlı proqram başlatdığı haqda xəbərlər yayıldı. Yəni artıq Suriyanın şimalında məclisi, silahlı gücü *(bu əsasdır - K.R.)*, polis və sərhəd qüvvələri olan faktiki kürd dövləti qurulma mərhələsindədir. Bəzi məlumatlara görə, ABŞ ötən ilin oktyabrında İŞİD-dən geri alınmış Raqqa şəhərini yeni yaradılacaq kürd dövlətinin paytaxtı olaraq görmək istəyir.

Kürdlərin Suriyanın şimalında dövlət və ya muxtariyyət qurması Suriya mərkəzi hökuməti qədər Türkiyəni də narahat edir. Türkiyə dövləti sərhədlərində mərkəzində PKK-nın müttəfiq təşkilatının dayandığı bir dövlətin qurulmasına seyrçi qalmaq istəmir. Çünki kürdlərin quracağı dövlət Türkiyədə separatizmi alovlandıra bilər.

Türkiyənin son günlərdə Afrin sərhədinə ordu toplaması və prezident Ərdoğanın açıqlamaları göstərir ki, Türkiyə Suriya ordusunun İdlibdə əməliyyat keçirdiyi bir vaxtda Afrinin kürdlərdən təmizlənməsi əməliyyatı hazırlanır. Maraqlıdır ki, Afrindəki 200 nəfərə yaxın Rusiya hərbçisi də bir neçə gün əvvəl ərazini tərk edərək mərkəzi hökumətin nəzarətindəki qəsəbəyə yerləşib. Ancaq Türkiyə ordusunun Afrinə hücumu faktiki olaraq yalnız kürdlərlə deyil, həm də ABŞ-la qarşıdurmaya çevrilə bilər. Çünki bölgədə həm də amerikalı hərbçilər var və ötən ilin aprelində vəziyyət gərginləşəndə Türkiyə-Suriya sərhədlərində kürdlərlə Türkiyə ordusu arasındakı zolağa amerikalı patrullar yerləşdirilib. İndi belə çıxır ki, Türkiyə ordusu qəfil hücum edərsə amerikalılarla savaşmalı olacaq. Hələliksə amerikalılar kürdləri tərk etmək istəmir. Əgər amerikalılar inad edib Afrində kürdləri dəstəkləməkdə davam edərlərsə, toqquşmaya onlar da qarışa bilər. Ancaq birbaşa toqquşmaya amerikalı hərbçilərin qarışması az ehtimal olunur. Çünki birincisi, Afrində amerikalı yoxdur. İkincisi də Vaşinqton Türkiyə ilə birbaşa toqquşmaya razı olmaz. Ancaq faktdır ki, yaxınlaşan Afrin əməliyyatı birbaşa olmasa da, dolayısı ilə Vaşinqton və Ankaranın qarşıdurması olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018



# Pikassonu tanımaq

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə keçən yazımda ("Çili qozu") getmiş yanlışa düzəliş verim. Bunu hörmətli oxuculardan Füzuli Dehqani məktubla diqqətimə çatdırdı, yoxsa heç xəbərim yox idi, buna görə ona qəzet vasitəsiylə təşəkkür edirəm. Uzun sözün qısası, yazıda Pablo Neruda-nın soyadı mexaniki olaraq Pikasso kimi gedibdir. Hərçənd, mənim indi bəzi xarici düşmən qüvvələrə Pikassonu və Nerudanı ayırmaq qabiliyyətimin olmasını isbat eləməyim çətin işdir. O məşhur sovet anekdotunda mədəniyyət naziri Furseva-nın dediyi kimi, Pikasso kimdir ki?**

Ta mövzu açılıbdır, Pikasso temasında bir yaxşı lətifəni də yazım. Bir gün arvad gedir seksopatoloqa şikayət edir ki, heç ərim mənimlə mədəni söhbətlər eləmir, axşam yeməyini yeyən kimi uzanır çarpayıya, deyir, gəl... Həkim əri də ayrıca qəbul edir, buna başa salır ki, həyatda intim münasibətləri bu cür qurmaq olmaz, bir qədər mədəni olmaq lazımdır. Deyir, sən arvadla yatmazdan qabaq onunla Bethovendən danış, Fellinidən danış, nə bilim, Pikassodan danış. Ər deyir, yaxşı, gedirlər evə, axşam düşür, yemək-içməkdən sonra, bu çarpayıda oturub arvaddan soruşur: "Sən Pikassonu tanıyırsan?". Arvad deyir, yox. Kişi deyir: "Heç mən də tanımıram. Gəl!"

Düzgün anlamısınız, bugünkü temamız millətin mədəni səviyyəsinin yüksəldilməsi, zəhmətkeşlərin asudə vaxtının səmərəli təşkilidir. İnsan asudə vaxtında əsasən toya, nişana, xınayaxdıya getməlidir. Bu zaman görürsən hansısa məmurun, şöbə müdirinin uşağının toyunda 500 min dollarlıq müğənnilər oxuyur. Hansı vəsait hesabına? Əlbəttə, bu heç kəsi maraqlandırmır. Əksinə, maraqlananlara "paxıllar, ölün elə" deyirik. O cümlədən, xarici media bu toyun yiyəsini "iş adamı" kimi adlandırır. Deməli, bizdə dövlət məmurunun iş adamı sayılması da normaldır. Xarici qara qüvvələr belə şeyləri anlamazlar. Sevindirici haldır ki, fevral ayından pensiyaların baza hissəsi 12 manat qalxacaqdır. 215 manat alan 227 manat alacaqdır! Fantastikadır. Artımı yığıb nəvənin sünnət toyuna Murad Qozu gətizdirə bilərsən.

Yaxud bizim məmurların ulu babası Lenin müəllimin məşhur afyorizmi var idi: "Bütün incəsənət növləri arasında bizim üçün ən önəmlisi kinodur". Təzəlikcə bizdə bir kino qayırıblar, orda hansısa rayonun camaatı təhqir olunubdur. Rayonun və kinonun adını ona görə çəkmirəm ki, belə bambılı temalarda özündən çıxan camaata nə eləsən azdır. Rəhmətlik milli qəhrəman Fred Asifin Ağdamı tərk edərkən dediyi: "Bizim qeyrət, kişilik, namus hamısı bu torpaqda qaldı. İndən belə bizə nə desələr azdır" məzmunlu sözlərini unutmaq olmazdı. Nəsə. Həmin filmdə qəzəbə səbəb olan səhnə isə beləymiş ki, baytar narkotikdən hallanıb adamı at kimi görür, hoppanır minir belinə. Guya buna gülmək lazımdır. Ancaq "Bu şəhərdə" adlı "komik" qrupun işlərinə baxanda buna hətta yumor demək mümkündür. Srağagün həmin biabırçılıqdan bir hissəyə alış-verişə girdiyim dükanda, satıcının televizorunda təsadüfən baxdım. "Aktyor"un biri guya dəllək rolunu oynayırdı, o biri isə qadın müştəri. (Bunlar hələ də arvad paltarı geyinən kişi obrazı ilə milləti güldürməyə çalışırlar. Ən dəhşətlisi odur ki, millət də baxır, irişir). Müştəri dəlləyə deyirdi ki, saçımı riyaziyyat elə. Sən demə o, bununla saçıma "ximiya" elə demək istəyirmiş. Deqradasiyaya baxın. O qədər əttökən söhbət idi ki, buna heç ağlamaq da olmazdı, nəinki gülmək. Adamların bu biabırçılığına bileti isə 50 manata satırlar.

Ancaq insaf naminə bizim kino və teatr sənətində aşınmanın bugünkü hadisə olmadığını qeyd eləməliyəm. Bunun kökləri sovet dövrünə gedib çıxır. Bu haqda sabahkı yazımda - indi yerimiz bitdi.




# Ermənistan üsyan ərəfəsində - müxalifət xalqı küçəyə çağırdı

## "10 gün sonra ölkədə üsyan başlaya bilər" - erməni siyasilər və politoloqlardan hakimiyyətə sərt xəbərdarlıq gəldi; "Parlament dinləmələri heç nəyi dəyişməyəcək, əgər..."

**Yeni ilin gəlişi ermənilər üçün Şaxta babanın yox, hakim rejimin "sürprizləri" ilə yadda qalıb. "Yeni Müsavat" xəbər verir ki, yanvarın 1-dən Ermənistanda əsas gündəlik tələbat malları ilə yanaşı, benzin, dizel yanacağı, sıxılmış qaz da bahalaşıb. Təbii ki, əhali bunu öz üzərində o zaman hiss edəcək ki, öhdəsindəki və satışda köhnə ərzaq ehtiyatı bitəcək. Enerjidaşıyıcılarının qiymətinin artması isə zəncirvari reaksiya kimi əlavə bahalaşma dalğası yaradacaq.**

Sözsüz ki, hakimiyyət vəziyyətin və mümkün radikal proseslərin fərqindədir. Prezident Serj Sərkisyanın yanvarın 10-da hökumətin təcili müşavirəsini çağırması da müstəsna olaraq bu impetarivlə bağlı idi. Ancaq belə görünür ki, həmin toplantı PR işindən savayı heç nəyə yaramayıb. Ölkədə qiymətlərlə bağlı narazılıqlar artır.

Heç şübhəsiz, bu üzdən spiker Ara Babloyan yanvarın 23-də hakim Respublikaçılar Partiyasının üstünlük təşkil elədiyi parlamentdə bahalaşma ilə bağlı dinləmələr keçiriləcəyini bəyan edib. Ancaq yerli siyasi müşahidəçilər bunun da bir görüntü xarakteri daşıyacağı və vəziyyəti dəyişməyəcəyi qənaətindədirlər.

*****

"10 gün sonra Ermənistanda üsyan olacaq". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri tanınmış erməni **politoloq Levon Şirinyan** Laragir.am nəşrinə müsahibəsində deyib. Onun sözlərinə görə, Ermənistanın hazırkı prezidenti prezident kürsüsündən baş nazirliyə keçməklə öz hakimiyyətini saxlamağa çalışır.

**Ölkədəki gərginlik fonunda baş verəcək mümkün sosial-siyasi kataklizmlərə toxunan politoloq deyib:** "Biz hazırda elə vəziyyətdəyik ki, kataklizmlər istənilən an və ən gözlənilməz formada baş verə bilər... İnsanlar hələ ki bahalığı hiss eləmirlər, çünki yeni il ehtiyatları hələ tükənməyib. Hakimiyyət də müzakirələrə məhz indi, boşuna başlamayıb. Təxminən 10 gün sonra əhali hər şeyi öz üzərində hiss edəcək və onda üsyan ola bilər. Əgər "Yelk" bloku (parlamentdəki müxalif fraksiya - red.) aksiyaları təşkil edə bilsə, o zaman etirazlar böyüyən xətlə gedəcək".

"Bizim ölkəmiz institusional şəkildə inkişaf eləmir, onu oliqarxlar, psevdo-ziyalılar, mümkündür ki, hərbi rəhbərlik idarə edir. Ermənistanda istənilən hərəkat çox sürətlə siyasi hərəkata çevrilə bilər", - deyə o əlavə edib.

*****

Bu arada 19 yanvara etiraz aksiyası təyin eləmiş "Yelk" bloku parlamentdə insanları bahalaşma əleyhinə küçələrə çıxmağa və hakimiyyəti Vergi Məcəlləsinə dəyişikliklərə məcbur etməyə çağırıb. "Yeni Müsavat" erməni qaynağına istinadən xəbər verir ki, dünən - həftənin birinci günü parlamentdə bahalaşma ilə bağlı müzakirələrdə sözügedən fraksiya yaranmış vəziyyətə görə məhz hakim çoxluğu günahlar elan edib.

"Elə təəssürat yaranır ki, sanki hakim partiya və hakimiyyət bahalaşmadan yalnız indi xəbər tutub və qarşısını almağa qərar veriblər. Ancaq biz bütün 2017-ci il ərzində bu barədə danışır, xəbərdarlıq edirdik ki, yanvarın 1-dən yeni Vergi Məcəlləsinin qüvvəyə minməsi ilə bahalaşma qaçılmaz olacaq. Sıxılmış qazın qiymətini siz üç dəfə qaldıranda fikirləşmədinizmi ki, bu, multiplikativ effekt verəcək?", - deyə fraksiyanın üzvü, deputat Edmon Marukyan öz çıxışında bildirib.

Bu yerdə bir daha xatırladaq ki, parlamentin spikeri Ara Babloyan yanvarın 23-də bahalaşma ilə bağlı parlament dinləmələrinin anonsunu verib. Edmon Marukyan isə bəyan edib ki, dinləmələrin hər hansı əhəmiyyəti yoxdur, əsas odur ki, təcili şəkildə Vergi Məcəlləsinə düzəlişlər edilsin. "Biz adamları küçəyə çıxmağa çağırırıq, çünki parlament meydançası artıq özünü tükədib" - deputat əlavə edib.

**Öz növbəsində fraksiyanın başqa bir üzvü - Nikol Paşinyan qeyd edib:** "Rəsmi məlumatlara əsasən, keçən il inflyasiya dəhşətli ölçüdə olub. Ət, yağ, benzin, dizel yanacağı bahalaşıb. Yanvarın 1-dən yeni Vergi Məcəlləsi qüvvəyə minəndən sonra növbəti bahalaşma başlayıb. Yanacağın bahalaşması isə qiymətlərin permanent qalxmasına gətirəcək, inflyasiya 20-30%-ə çatacaq. Yeganə çıxış yolu - Vergi Məcəlləsinə düzəlişlər eləməkdir. Bu da yalnız küçəyə çıxan xalqın təzyiqi ilə mümkündür".

*****

Böyük ehtimalla belə də olacaq. Hər halda, xalqdan çoxdan uzaq düşmüş mövcud hakimiyyət - kriminal Sərkisyan rejimi xoşluqla qiymət endirməsinə getməyəcək. Çünki bu, oliqarxik rejimin marağında deyil. Başqa yandan, onu da unutmaq olmaz ki, mövcud hakimiyyət öz xalqına qarşı qan tökmək təcrübəsinə də malikdir (1 mart 2008).

Durumun həssaslığı həmçinin onunla bağlıdır ki, Serj Sərkisyan cəmi ayyarım sonra (martın 2-nə seçki təyin edilib) prezidentlikdən ölkənin əsas şəxsi olacaq baş nazirliyə sıçrayış eləməyi hədəfləyib. Bu isə yalnız ölkədə minimal ictimai etimad və siyasi barış şəraitində mümkündür. Aydındır ki, ölkədəki daxili qarışıqlıq fonunda buna nail olmaq qeyri-mümkün olacaq. Əks halda, yəni milli konsensusun olmamasına rəğmən, Sərkisyanın israrla baş nazir postunu tutması yanan ocağa yağ tökmək effekti verərək, xalqın qəzəbini bir az da artıracaq.

Əlavə edək ki, bu günlərdə Avropadakı erməni diasporunun liderlərindən olan Aşot Qriqoryan da Sərkisyanı hakimiyyətdən və xalqa qarşı zorakılıqlardan çəkinməyə çağırıb.

❑ **"Yeni Müsavat", siyasət şöbəsi**

# Lavrovun Qarabağla bağlı "bizlik deyil" blefi...

**"Dağlıq Qarabağ münaqişəsini tərəflər yalnız özləri həll edə bilər". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov 2017-ci ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib. Lavrov bildirib ki, Rusiya tərəfinin bu məsələnin həlli ilə bağlı konkret planları ola bilməz: "Rusiya ABŞ və Fransa ilə birlikdə belə bir həllin əldə olunması üçün şəraitin yaradılması istiqamətində əlindən gələni edir".**

Lavrovun növbəti dəfə belə bir açıqlama ilə çıxış etməsi Azərbaycan ictimaiyyəti tərəfindən etirazla qarşılanır. Çünki hər kəsə bəllidir ki, Ermənistan ordusu məhz Rusiyanın siyasi və hərbi dəstəyindən güc alaraq Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Qarabağ münaqişəsinin müəllifi isə məhz Moskva özüdür. Belə olan halda Rusiya xarici işlər nazirinin "Qarabağ münaqişəsini yalnız Azərbaycan və Ermənistan həll edə bilər" açıqlaması Azərbaycan ictimaiyyətində etiraz doğurmaya bilməz.

Bəs bu açıqlamanın izahı nədir? Lavrovun bu açıq bəyanatı yeni vəziyyət yaradırmı?

Rusiyalı nazirin bəyanatını "Yeni Müsavat"a şərhində **politoloq Elxan Şahinoğlu** bildirdi ki, Sergey Lavrov ilk dəfə deyil Dağlıq Qarabağ münaqişəsinin həllinə görə yaxasını kənara çəkir, məsuliyyəti Azərbaycanın və Ermənistanın üzərinə atır. Əgər Lavrov dediyi kimi, münaqişəni Azərbaycan və Ermənistan həll etməlidirlərsə, onda birincisi, Minsk Qrupu həmsədrləri nəyə və kimə lazımdırlar? İkincisi, son qərarı Bakı və İrəvan verməlidirsə, nəticəsi olmasa da, Rusiya niyə bu prosesə fəal vasitəçilik edir, tez-tez nazirləri və prezidentləri ya Moskvaya, ya da Soçiyə dəvət edir? Və nəhayət, üçüncüsü, Rusiya Azərbaycana niyə mane olur ki, biz öz bildiyimiz kimi münaqişəni həll edək? Axı 2016-cı ilin aprelində biz 4 gün yox, daha çox savaşıb Lələtəpənin ətrafını da azad edə bilərdik, Buna Rusiya mane oldu, müdafiə nazirləri Bakıya zəng edib döyüşləri dayandırmağı xahiş və ya tələb etdi: "Bunu Azərbaycan rəsmiləri də gizlətmirlər. Sergey Lavrov Qarabağ münaqişəsinin həllinə görə məsuliyyətini kənara çəkir. Çünki bilir ki, münaqişənin həlli üçün ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Bunu isə bir erməni kimi həm o, həm də onun ətrafı istəmir. Ancaq Lavrov sona qədər səmimi deyil. Lavrov münaqişəni həll etmək istəməsə də, münaqişə vasitəsilə bölgədəki varlıqlarını da sürdürmək istəyirlər".

**Politoloq Elçin Mirzəbəyli isə bildirdi ki, əgər Lavrovun bəyanatını münaqişənin yaranma səbəblərini, işğal tarixini və reallıqları nəzərə almaqla dəyərləndirsək, o zaman "münaqişəni tərəflər yalnız özləri həll edə bilər" mülahizəsi ilə razılaşmaq olar:** "Lavrov doğru deyir,



**Elxan Şahinoğlu:** "Elə isə Rusiya Azərbaycana niyə mane olur ki, biz öz bildiyimiz kimi münaqişəni həll edək?"



**Elçin Mirzəbəyli:** "Lavrov doğru deyir, münaqişəni tərəflər özləri həll edə bilər və bu tərəflərdən biri də Rusiyadır"

münaqişəni tərəflər özləri həll edə bilər və bu tərəflərdən biri də Rusiyadır. Ermənistan isə işğal faktorunda medalın görünən tərəfidir. Münaqişənin təməlində Rusiyanın regiondakı maraqları dayanır. Rusiya yalnız sənəd üzərində vasitəçidir, əslində isə tərəfdir. Münaqişənin həlli də yalnız Rusiyanın öz real statusunu etiraf edəcəyi, yaxud tarix boyu istismar etdiyi regiondan çıxıb gedəcəyi təqdirdə mümkün olacaq. Lavrovun "Rusiya, ABŞ və Fransa ilə birlikdə belə bir həllin əldə olunması üçün şəraitin yaradılması istiqamətində əlindən gələni edirlər" deməsinə gəldikdə isə bu fikir də siyasi riyakarlıqdan başqa bir şey deyil. Münaqişənin həll olunması üçün real şərait o zaman yarana bilər ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması üçün konkret addımlar atılsın, işğalçıya qarşı sanksiyalar tətbiq olunsun, təcavüzkar sülhə məcbur edilsin. Bütün bunlardan kənarda deyilən nə varsa söz yığınıdır. Lavrovun bəyanatının digər tərəfi isə ondan ibarətdir ki, Rusiya 2018-ci ildə hətta simvolik olsa da belə danışıqlar prosesinin aktivləşməsində maraqlı olmayacaq və "Lavrov planı" 2017-ci ili yola vermək üçün blefdən başqa bir şey olmayıb".

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

# ABŞ-ı Şimali Koreya diktatoru ilə dialoqa sövq edən amillər...

## Müharibəyə başlamaq üzrə olan tərəflərin qəfildən danışıqlar masasına əyləşməsinin səbəbi

**2017-ci ilin ikinci yarısında Cənubi Koreya ilə Şimali Koreya Xalq Demokratik Respublikası arasında gərginlik yaşandı. ABŞ-ın Cənubi Koreyanı müdafiə etməsi və Şimali Koreyanın üzərinə hücuma keçməsi isə vəziyyəti xüsusilə ciddiləşdirmişdi. Prosesin hətta müharibə fazasına keçməsi an məsələsi kimi görünürdü.**

Lakin ilin son ayından etibarən gərginlik birdən-birə yumşalmağa başladı. Yanvar ayından isə Cənubi Koreya ilə Şimali Koreya arasında danışıqlar start götürüb. Fevralın 16-da yeni yüksək səviyyəli görüşün keçirilməsi nəzərdə tutulur. Həmçinin Seul hər iki ölkənin hərbçilərinin danışıqlara başlamağını təklif edib. Cənubi Koreya KXDR-ə qarşı irəli sürülmüş sanksiyaları müvəqqəti olaraq ləğv etmək niyyətini bildirib. Danışıqların davam edəcəyi gözlənilir.

Müharibəyə başlamaq üzrə olan tərəflərin birdən-birə danışıq masası arxasında qarşı-qarşıya əyləşməsi ortaya suallar çıxarır.

Gərginliyin yumşalmasında və danışıqlar başlanmasında ABŞ-ın mövqeyi rol oynadımı? ABŞ konfliktin dərinləşməsindən və müharibə fazasına keçməsindən çəkindimi? Çəkindisə, səbəb nədir?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, Şimali Koreya və Cənubi Koreya arasında olan gərginlik ilk gərginlik deyil. Belə hallar indiyə qədər dəfələrlə baş verib və sonda indi olduğu kimi sakitləşib. Gərginliyin bu şəkildə inkişaf etməsi əslində nə Şimala, nə də ki, Cənubla ABŞ-a sərf edir. Şimali Koreya lideri Kim Cen İnin də, ondan öncəki rəhbərlərin də hədələrini özünüqoruma instinkti adlandırmaq olar. Onlar düşünürdülər ki, təhdidlərlə özlərinə qarşı olan gücləri dayandırmağa məcbur edəcəklər və rejimlərini qoruyacaqlar. Bu taktika hələlik müəyyən qədər özünü doğruldur: "Bu qarşıdurmalarda ilk gündən ABŞ-n xüsusi rolu olub. Bilirik ki, Cənubi Koreyanın təhlükəsizliyinə qarant ABŞ-dır. Bunu bütün imkanları ilə indiyə qədər həyata keçirib. Eyni zamanda bu müddət ərzində Cənubi



Kim Cen İn

Koreya ilə birgə Şimaldakı rejimi dəyişdirib sonradan iki dövləti birləşdirməklə bağlı çoxlu planlar da olub. Amma bütün cəhdlər hələ ki uğursuzdur. Rusiyanın Şimali Koreyaya beynəlxalq təşkilatlar, xüsusilə də BMT vasitəsilə verdiyi açıq siyasi dəstəyi və gizli dəstəklərini də xüsusi qeyd etmək lazımdır. Odur ki, Cənubi Koreya və ABŞ indiki halda münaqişənin hərbi yolla həllinin tərəfdarı deyil. Çünki bu yol Cənubu böyük təhlükə altına qoyur. Cənub isə Şimaldan fərqli olaraq iqtisadi cəhətdən yüksək inkişafa malik, Qərb və ABŞ-ın strateji partnyoru olan sivil bir ölkədir. Bu regionda münasibətlər qaynar fazaya keçərsə, nəticəsindən asılı olmayaraq hər iki tərəf uduzmuş olacaq. ABŞ isə bu yolu tutmaq istəmir".

**Politoloqun sözlərinə görə, ABŞ bilir ki, Kim Çen İnin Cənubla müharibə aparmaq üçün uzaqmənzilli raketlərə ehtiyacı yoxdur. Halbuki onun nüvə başlığı daşıya bilən uzaqmənzilli raketlərə malik olduğu da məlumdur:** "Bu da ABŞ-a, xüsusən də onun regiona yaxın hərbi bazalarına da təhdiddir. Ona görə də hesab edirəm ki, əslində danışıqların imitasiyası olacaq. Bu, indiki halda da hər iki tərəfi qane edir. Bununla belə, tərəflərin problemlə bağlı mövqelərində və hədəflərində heç bir dəyişiklik də olmayacaq. Yəni bir-birilərinə düşmən olan iki fərqli rejimin hansı konstruktiv danışıqlarından söhbət gedə bilər? Eyni zamanda düşünürəm ki, bu cür gərginliklər gələcəkdə də olacaq. Amma Şimaldakı rejimin çökdürülməsi prosesi digər bütün yollarla davam etdiriləcək və ABŞ bu hədəfə çatmaq yolundan çəkilməyəcək".

❑ **Etibar SEYİDAĞA**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018



# Çabalayan Sərkisyan...

Hüseynbala SƏLİMOV

**Soyuq qış günlərində Ermənistandakı prosesləri izləməyin özü izafi soyuqluq, hətta əzabdır. Amma təskinlik verən budur ki, zaman keçdikcə bu ölkədən gələn "isti" xəbərlərin, yaşanan "isti" olayların sayı durmadan artır, istər-istəməz adamda inam yaranır ki, ölkə bataqlıqdakı adam kimidir, çabaladıqca daha da dərinə batır...**

Xüsusən də il Ermənistanda gərgin olmağı vəd edir, çünki ortada hakimiyyət məsələsi var. Hakimiyyət isə elə şeydir ki, həmişə birləşdirməkdən daha çox ayırmağa, qarşı-qarşıya qoymağa xidmət edir. Hətta ölkənin bütün siyasi gücü bir patiyada, bir siyasi blokda cəmləşdiyi halda bir də görürsən ki, həmin strukturların özündə belə çat yaranır, eyni cinahda hakimiyyətə iddialı bir neçə adam peyda olur.

Ermənistanda indi məhz belədir. Hakim siyasi partiyanın öz içində, müxalifət strukturlarında yeni-yeni iddiaçılar təzahür edir. Amma hər şey bir sualın cavabından asılıdır və doğrusu, neçə aydır biz həmin suala başqa cavab tapa bilmirik. Hey düşünürük ki, görən, ölkənin parlament üsul-idarəsinə keçməsi kimə daha çox sərf edirdi?..

Burada bir neçə əsas məsələ var. Bu cür mühüm qərarları yalnız güclü siyasi vektor reallaşdıra bilər. Ermənistandakı müxalifət haqqında bunu qəti demək olmur. Deməli, qalır, hakimiyyət. Elə bütün məntiq də bizə deyir ki, bütün bunlar Sərkisyanın oyunları idi, çünki hakimiyyətin güc nöqtəsinin prezident müstəvisindən baş nazir müstəvisinə keçirilməsi ilk növbədə onun maraqlarına xidmət edirdi, çünki yalnız bu yolla ölkədə o, ilk "siyasi uzunömürlü" ola bilərdi. İndiki dəyişiklik də ona bu şansları yaradır. Üstəlik, Ermənistanda "siyasi uzunömürlü" olmamaq dəfələrlə ərz etdiyimiz kimi, sadəcə, günahdır, çünki zəif müxalifət və zəif erməni "demokratiya"sı bu planları reallaşdırmaq üçün yetərincə imkan yaradır.

Bəli, bütün erməni demokratiyası daha "inandırıcı seçki tərtibatı"ndan başqa bir şey deyil - ermənilər seçilər vaxtı guya ki, daha "inandırıcı" və daha "real" ədədlər yazırlar. Söz yox, Ermənistanda tamam diktaturanın olduğunu da demək olmaz - burada müxalifət hərdən cızıqdan kənara çıxa bilir, bir də görürsən ki, Baqramyan prospektilə o tərəf-bu tərəfə gedə də bilirlər. Amma bütün bunlar hakimiyyətə və xüsusən də ölkənin kursuna real təsir etmək üçün qətiyyən yetərli deyil. Məsələ bundadır ki, ölkənin siyasi müstəvisi yalnız daxili amillərlə müəyyən edilmir- burada bir real siyasi müsətvi var ki, o, da Moskva müstəvisidir, kim Kremlin daha çox rəğbətini qazanırsa, onun da siyasi şansları artır.

Qərbdəki erməni diasporuna gəldikdə, həmin moskvapərəst qüvvələr onları, sadəcə, nəzərə almağa çalışır. Məsələn, elə Avropa Birliyi ilə son dövrdə imzalanmış saziş də müəyyən mənada bu "diqqət"in göstəricidi, çünki Qərbdəki diasporu da tamam arqumentsiz qoymaq olmaz, güman ki, onlar hər dəfə Qərb institutlarından Ermənistana yardım diləndə o da diqqətə çatdırılır ki, İrəvan həddindən çox moskvapərəst siyasət və ya davranış nümayiş etdirir.

Bu məqsədlə arabir Qərbə yönəlik jestlər də edirlər ki, guya ki, ortada bir balans yaransın. Hətta dövlət səviyyəsində hər hansı bir ciddi əlaqə qurmaq mümkün olmayanda bunu partiya səviyyəsində etməyə çalışır və bəzən müəyyən addımlar da reallaşdıra bilirlər.

Məsələn, Avropa Xalq Partiyası deyilən qurum var və o, Avropa parlamentində çox ciddi təmsil olunub. Səhv etmirəmsə, burada bir yox, bir neçə erməni qurumu təmsil olunub ki, istər-istəməz onların Avropa müstəvisindəki gücünü bir az da artırır.

Qərəz, bunlar özlərinin axmaq ərazi iddialarını gerçəkləşdirmək üçün əsas müstəvinin Moskva müstəvisi olduğunu anlayırlar, amma yenə də ora-bura əl-qol atır, başqa müstəvilərdə də təmsil olunmağa cəhd edirlər.

Fəqət, hakimiyyət məsələsi bu dəfə də Moskva müstəvisində həll olunacaq, çünki digərləri yalnız köməkçi funksiya daşıyır. İndi hər şey daha çox ondan asılıdır ki, Moskva kimi bəyənəcək? Düşünürük ki, daha çox şanslı Serjikdir. Amma bütün bu prosesdə onun potensial iki uduşu var. Birincisi, elə bu il baş nazir olmaqdır. İkincisi, bunu bir az sonra, bir daha hakimiyyət olimpinə qayıtmaqla reallaşdırmaqdır.

Əsas odur, indiki proses artıq iki dəfə prezident olmuş Sarkisyanın yenidən ölkənin əsas adamı olmaq yolundakı maneəni aradan qaldırır. Sonrası Moskvalıq və bir də Sərkisyanlıqdır, maraqlar üst-üstə düşərsə, keçmiş sovet məkanında daha bir "uzunömürlü siyasət adamı" peyda olacaqdır...

**Son zamanlar Sumqayıtda sürətli abadlıq işləri aparılır, parklar salınır, yollar çəkilir. Sakinlər də bildirirlər ki, son bir neçə ildə Sumqayıtın əsas problemlərindən olan binaların zirzəmilərindən çirkab suların çəkilməsi, dam örtüklərinin yenilənməsi, yolların çəkilməsi onların həyat tərzinə müsbət təsir göstərib.**



# Sumqayıtda nə baş verir - prezidentin müşavirədə vurğuladığı məqamlar...

## "Bütün bu işlər ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq məqsədi daşıyır" - ekspert



**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqlə çıxış edən zaman Sumqayıtda baş verən yeniliklərə diqqət çəkmişdi. Ölkə başçısı Sumqayıtla bağlı aşağıdakıları söyləmişdi:**

"Sumqayıt Kimya Sənaye Parkında işlər çox uğurla gedir. Keçən ilin sonunda dörd yeni müəssisənin açılışı oldu və üç müəssisənin təməli qoyuldu. Əminəm ki, onların istifadəyə verilməsi bu il, ya da ki, gələn ilin əvvəllərində nəzərdə tutulacaq. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 15-ə çatıb və qoyulan, qoyulacaq sərmayənin həcmi 2,7 milyard dollara bərabərdir. Bax, bu təşəbbüs görün nə qədər gözəl nəticə verir. 2,7 milyard dollar sərmayə qoyuluşu böyük rəqəmdir. Halbuki Sumqayıt Kimya Sənaye Parkının ərazisində hələ iki-üç il bundan əvvəl dağılmış binalar, çürümüş borular, infrastruktur - hamısı bərbad vəziyyətdə idi. Dövlət bu yükü öz üzərinə götürdü, vəsait ayırdı və bütün lazım olan infrastrukturu yaratdı. Digər sənaye parklarımızda da bu işi dövlət öz üzərinə götürür və götürməlidir. O cümlədən dövlət kənd təsərrüfatı ilə bağlı olan işləri - infrastruktur işlərini, meliorativ tədbirləri, kanalların çəkilməsini, suyun sahələrə verilməsini öz üzərinə götürür. Deyə bilərəm ki, bu da dünya praktikasında çox nadir hallarda rast gəlinən məsələdir. Çünki bir çox ölkələrdə sahibkarlar özləri bu işləri görürlər".

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Eyvaz Qocayev də "Yeni Müsavat" açıqlamasında Sumqayıtda görülən işlər barəsində danışıb. O bildirib ki, son dövrlər Sumqayıtda çox sürətli şəkildə abadlıq-quruculuq işləri həyata keçirilib:** "Bunu həm sosial-mədəni, həm də iqtisadi sahədə görə bilərik. Şəhər infrastrukturunun yenilənməsi ilə bağlı geniş işlər görülür. Bildiyiniz kimi, 2016-cı ildə Sumqayıtda bir çox layihələr həyata keçirilib. Qısa müddətdə Sumqayıt bulvarı istifadəyə verildi, Heydər Əliyev parkında abadlıq-quruculuq işləri həyata keçirildi və orada Heydər Əliyev Mərkəzinin də əsası qoyuldu. Həmin parkın ərazisində Uşaq-incəsənət, şahmat məktəbi də istifadəyə verildi. Uzun müddət təmir olunmayan Sumqayıt Dövlət Dram Teatrı da təmir olunaraq, teatr sevərlər üçün yenidən açıldı. Bununla yanaşı, Sumqayıtda yol infrastrukturunun da yenilənməsi istiqamətində də mühüm işlər görüldü. Şəhərin əsas giriş yolları hər iki tərəfdən genişləndirilərək tamamilə yenidən quruldu. Həmçinin cənab prezidentin sərəncamı ilə Sumqayıtda çoxmənzilli binaların dam örtükləri, lift təsərrüfatının yenilənməsi, aqlay örtüklərlə üzlənməsi işləri görüldü. 2017-ci illərdə də bu işlər davam etdirildi. Cənab prezidentin 15 dekabrda Sumqayıt şəhərinə səfəri zamanı yeni sənaye müəssisəsələri istifadəyə verildi və eyni zamanda gələcəkdə fəaliyyət göstərəcək müəssisələrin təməli qoyuldu. Bununla yanaşı, Sumqayıt şəhərində Bayraq muzeyi, Yeni Azərbaycan Partiyasının yeni inzibati binası istifadəyə verildi. Uzun müddətdir təmirsiz qalan "Kimyaçılar" Mədəniyyət Sarayı da əsaslı şəkildə təmir olunaraq şəhər sakinlərinin ixtiyarına verildi. Bu gün də Sumqayıtda abadlıq-quruculuq işləri davam etdirilir. 2018-ci ildə qarşıya qoyulmuş hədəflər var və bu hədəflərə çatmaq üçün işlər davam etdiriləcək. Onu da qeyd edim ki, cənab prezident Sumqayıt şəhərində 105 liftin yenidən bərpası üçün vəsait ayırıb. Bu istiqamətdə və çoxmənzilli binaların dam örtüyünün dəyişdirilməsi, məhəllə daxili yolların asfaltlanması və ümumiyyətlə, insanların yaşayış şəraitinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində işlər davam etdiriləcək".

**"Yeni Müsavat"a danışan iqtisadçı ekspert Fikrət Yusifov bildirib ki, Sumqayıtda sənaye müəssisələrinin yaradılması iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində aparılan işlərin bir parçasıdır:**

"Real sektorun inkişafı istiqamətində hökumətin proqram hədəfləri var. Bu müəssisələrin açılması da hədəflərin reallaşdırılması istiqamətində görülən işlərdir. İndiyə qədər nefti xam şəkildə satırdıqsa, artıq neftdən hazırlanan məhsulların həm daxili, həm xarici bazarlara çıxarılması hədəflənib. Sumqayıtda müəssisələrin açılması da bu məqsədləri güdür. Yerlərdə sənaye zonalarının yaradılması, yeni müəssisələrin qurulması nəticə etibarilə iqtisadiyyatın neftdən asılılığının optimal həddə endirilməsini hədəfləyir. Son iki il ərzində iqtisadiyyatın inkişafında böyük yol xəritələri hazırlanıb. 2017-ci ildə qeyri-neft sektorunda ixracın həcmi 2016-cı illə müqayisədə təxminən 25 faizə qədər artıb. Bu rəqəm artıq onu deməyə əsas verir ki, real sektorun inkişafı istiqamətində görülən tədbirlər tədricən öz nəticələrini verməyə başlayır. Bütün bu görülən işlərin hamısının hədəfi ölkə iqtisadiyyatının neftdən asılılığını minimuma endirməkdir. İqtisadiyyat neftdən asılı olduğu vəziyyətdə ölkənin maliyyə vəziyyəti də bilavasitə neftdən asılı olur. Biz bunun çətinliklərini 2015-ci ildə manatın iki dəfə kəskin ucuzlaşması fonunda gördük. Ona görə də hökumət də bu vəziyyətə təkrar düşməmək üçün addımları hədəfləyib. Yaxın bir neçə il ərzində qeyri-neft sektorunda ixracın həcmini bir neçə dəfələr artırmalıyıq ki, ölkənin maliyyə durumunun neftdən asılılığını aşağı sala bilək".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Sərkisyan növbəti "aprel sınağı"ndan çıxa biləcəkmi?

## Hakimiyyətinin ömrünü uzatmağı planlaşdıran Ermənistan prezidenti çətin situasiya ilə üz-üzə qalıb; işğalçı ölkədə yetişən xalq-iqtidar qarşıdurması Azərbaycan üçün Qarabağ fürsəti yaradır; politoloqlardan maraqlı şərhlər...

**Ermənistan prezidenti Serj Sərkisyan özünün narahat günlərini yaşayır. İşğalçılıq siyasəti və beynəlxalq hüquqa meydan oxuması nəticəsində regional layihələrdən kənarda qalan ölkəsini dalana salmış erməni prezident indi də nə yolla olur-olsun, hökumətə rəhbərliyi ələ keçirməyə və nəticədə konstitusiya dəyişikliklərinə uyğun olaraq yenə də Ermənistanda birinci şəxs olmağa iddialıdır.**

Qəzetimizin də yazdığı kimi, aprel ayı yaxınlaşdıqca Ermənistanda daxili siyasi hərarət də artır. 2016-cı ilin aprel döyüşlərindəki sarsıdıcı itkilərdən sonra bu ay ermənilərin yaddaşında "xüsusi" yer tutub. Üstəlik, S.Sərkisyan yaxşı anlayır ki, aprel döyüşlərindəki ağır itkilər onun hakimiyyətini uzatmasını tormozlayan əsas amildir. Elə bu günlərdə erməni ekspert Manvel Sərkisyan "Serj Sərkisyanın erası bitib" deyərək, onu hakimiyyətdən getməyə çağırmışdı. Lakin Sərkisyan onu da bilir ki, 2008-ci ilin martında 10 ermənini qətlə yetirməklə prezident kürsüsünü ələ keçirməsinə, həmçinin Qarabağda erməni gənclərin məhvinə baiskar olduğuna görə xalq onunla haqq-hesab çəkəcək. Odur ki, nə yolla olursa-olsun hakimiyyət olimpindən enmək istəmir.

Son günlərdə S.Sərkisyanın gah xəstəxanaya yerləşdirildiyi, gah parlament fraksiyaları ilə bir araya gəldiyi, gah da Moskvaya gizli səfər etdiyi barədə xəbərlər yayılıb. Reallıq budur ki, Ermənistanın cani prezidenti ora-bura vurnuxur və çıxış yolu axtarır. Aprel döyüşlərindən sonra da Sərkisyan eyni qiyafədə görünürdü. O zaman Almaniya kansleri Merkelə Rusiyadan şikayət edən S.Sərkisyan daha sonra keçmiş president Levon Ter-Petrosyanın ayağına gedəcək qədər özünü alçaltdı. Lakin elə ki, vəziyyətdən çıxdı, seçkilərə qatılan Petrosyanı parlament kandarından içəri buraxmadı.

İndi də hiyləgər tülkü cildinə girən erməni prezident öz rəqiblərini neytrallaşdırmaq, sakitcə kürsü dəyişimini həyata keçirmək üçün manevrlər edir. Ermənistan paytaxtında bahalaşmaya etiraz olaraq, ümumiyyətlə, sosial vəziyyətlə əlaqədar yürüş keçiriləcək. Yanvarın 19-na planlaşdırılan bu aksiya ərəfəsində Ermənistan parlamenti vəziyyətlə əlaqədar dinləmələr keçirməyə qərar verib. Erməni ekspertlərin dediyi kimi, Sərkisyan hakimiyyəti xalqa söz yedirməklə məşğuldur. Ermənistanın Rusiya ilə dəmir yolu və avtomobil yolunu açmaq istiqamətində Gürcüstanla apardığı danışıqların nəticə verməməsi, ölkədən miqrasiyanın güclənməsi S.Sərkisyanın durumunu daha da ağırlaşdırır. Hesab olunur ki, Sərkisyan hökumətin başına gəlsə belə, onu yaxşı gələcək gözləmir.

Üstəlik, görünən budur ki, erməni lobbisi də Sərkisyandan üz döndərməkdədir. Erməni lobbisinin ən güclü olduğu Avropadan onun ünvanına ultimativ hədələrin gəlməsi də bunu təsdiqləyir. "Əgər Serj Sərkisyan qərara gəlsə ki, apreldə baş nazir olsun, o zaman o, xalqın səbir kasasını dolduracaq. Ermənistanda vəziyyət partlayış həddindədir və istənilən an nəzarətdən çıxa bilər.

**Əgər Sərkisyan bu sonuncu əclaflığa da getsə, ağlagəlməz nəticələr qaçılmaz olacaq. Ermənistanda üsyan tamamilə mümkündür. Biz buradan situasiyanı diqqətlə izləyirik və qan tökülməsini istəmirik. Və biz buna imkan verməyəcəyik". "Yeni Müsavat" erməni qaynağına istinadən xəbər verir ki, bunu Avropadakı Erməni Assosiasiyaları Forumunun sədri Aşot Qriqoryan deyib. Onun sözlərinə görə, qarşıdan qanlı 1 mart olaylarının növbəti ildönümü gəlir və onun təkrarlanmasına yol verməmək olmaz.** "Bu günə kimi hakimiyyət bütün üsyanları qanunsuz və cinayətkar üsullarla yatırıb. Buxarın səviyyəsi, təzyiq artıb, partlayış olacaq. Əgər Serj Sərkisyan özünün terrora əl atmaq hüququnun olmadığını anlamırsa, o zaman vəziyyət proqnoza yatmayacaq. Dövlət terrorizmi daha pisdir. Yox, əgər bu siyasət davam edərsə, insanlar qorxudan qurtulacaq. Qorxu bitəndə isə hər şeyi gözləmək olar. Odur ki, ilk növbədə Sərkisyanlar ailəsi təhlükə altındadır. Belə klanların hansı aqibətə tuş gəlməsi haqda dünyada acı nümunələr çoxdur", - deyə o hakimiyyətdəki "Qarabağ klanı"na sərt xəbərdarlıq edib.

Erməni lobbisi və erməni kilsəsinin Ermənistan hakimiyyətinin taleyini həll etdiyi bəllidir. Bu mənada onsuz da erməni diasporundan asılı vəziyyətdə olan Sərkisyan hakimiyyətini apreldə çox ciddi sınaqlar gözlədiyi şübhə doğurmur. Nəzəri cəhətdən işğalçı ölkədə baş verənləri Azərbaycan üçün fürsət kimi də dəyərləndirmək olar. Fakt budur ki, Ermənistan Azərbaycan ərazilərini məhz Bakıda gərgin ictimai-siyasi atmosferin hökm sürdüyü dönəmlərdə işğal edib və bəlkə də artıq cavab vədəsidir.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Serj Sərkisyan rejimi ilə erməni diasporu arasında xeyli müddətdir ki, çat yaranıb:** "Sərkisyan bir çox səbəblərdən erməni diasporunu, xüsusilə də Avropadakı erməniləri qane etmir. Çünki Sərkisyan rejiminin antidemokratikliyi erməni diasporunun Avropa strukturları ilə əlaqələrinin inkişafına, Ermənistana maddi dəstəyin və investisiyaların cəlb olunmasına və təbii ki, bu kontekstdə diasporun öz maraqlarına da mane olur. Avropadakı Erməni Assosiasiyaları Forumunun sədri Aşot Qriqoryanın açıqlamalarını da məhz bu kontekstdən dəyərləndirmək lazımdır".



**Ekspertin fikrincə, bu, o demək deyil ki, Aşot Qriqoryanın, yaxud hansısa başqa bir diaspor rəhbərinin görmək istədiyi Ermənistan işğalçılıqdan dərhal əl çəkəcək və konstruktiv mövqe sərgiləyəcək:** "İstər Avropadakı, istərsə də Amerikadakı erməni təşkilatlarının ali məqsədi Dağlıq Qarabağın Azərbaycandan qopardılmasıdır. Əslində Dağlıq Qarabağda separatizmi körükləyən də diaspor olub. Azərbaycan ərazilərinin işğal edilməsinin ideoloji mərkəzi rolunda erməni Qriqoryan kilsəsi və erməni diasporu çıxış edib. Bu reallıq bu gün də dəyişməyib. Bu baxımdan Aşot Qriqoryan kimilərin açıqlamalarını ermənilərin maraqları baxımından dəyərləndirmək lazımdır. Bizim üçün isə ən əlverişli Ermənistan - məğlub olmuş Ermənistandır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da təsdiqləyir ki, Ermənistanda parlament seçkisi yaxınlaşdıqca bu ölkədə vəziyyət gərginləşəcək:** "Bu, iki səbəbə görə baş verəcək. Birinci səbəb odur ki, hakimiyyət içində qovğa var, kimin gələcək baş nazir və prezident olacağı hələ müəyyənləşməyib. Belə görünür ki, hazırkı baş nazir Karen Karapetyan öz mövqeyini asanlıqla prezident Serj Sərkisyana təslim etmək istəmir. Konstitusiya dəyişikliyinə görə bu ildən başlayaraq Ermənistanda əsas fiqur prezident yox, baş nazir olacaq. Ona görə də bu post uğrunda gərgin mübarizə gözlənilir. İkinci səbəb odur ki, Sərkisyana müxalif olan bütün qüvvələr ona qarşı etiraz səslərini daha gur ucaltmağa başlayıblar. Bunun üçün münbit zəmin var. Ermənistan iqtisadiyyatı və sosial durumu getdikcə ağırlaşır, inflyasiya və ölkə tərk edənlərin sayı artır. Bu da müxalifətə hakimiyyətə qarşı hücum keçməyə şərait yaradır".

**Bununla belə, E.Şahinoğlu bu qarşıqlığın Qarabağ münaqişəsinin həllinə təsir edəcəyini düşünmür:** "Ancaq cəbhə bölgəsində əlavə gərginlik Sərkisyanın işini çətinləşdirə bilər. Onsuz da 4 günlük aprel savaşından sonra Ermənistan hələ də özünə gələ bilməyib, cəbhə bölgəsində artan itkilər Sərkisyanın əleyhinə işləyir. Ona görə bizim snayperlərimiz və kəşfiyyat qruplarımız fəaliyyətlərini bir az daha genişləndirməlidirlər".

**Maraqlıdır, bu mərhələdə Moskva Sərkisyana dəstək olacaqmı? Yoxsa Kremlin yeni kadrı var? E.Şahinoğlu:** "Ermənistan Rusiyadan o qədər asılı vəziyyətdədir ki, bu ölkədə prezident və baş nazir olmaq üçün birinci növbədə Moskvanın icazəsini almaq lazımdır. Moskva isə Ermənistanda kimə üstünlük verəcəyi ilə bağlı qərarı son anda verəcək. Bu qərarın gecikməsi Sərkisyanın gərginliyini artıracaq".

**Politoloq indiki situasiyada ehtiyatlı davranmağı zəruri sayır:** "Çünki ordumuz hücuma keçsə, bu, əksinə, Serj Sərkisyanın işinə yaraya bilər. Birincisi, o, fövqəladə vəziyyət elan edib seçkiləri təxirə salar, ikincisi müharibədən istifadə edərək cəmiyyətini ümumi "hədəf" ətrafında birləşdirər. Məncə, Sərkisyana belə şans vermək lazım deyil. Ancaq yenə də təkrar edirəm, snayperlərimiz və kəşfiyyat qruplarımız öz işlərində olmalı, düşmənin itkilərini artırmalıdırlar. Bunu bizə heç kim, hətta Moskva da qadağan edə bilməz".

**Moskvaya gəldikdə, Rusiya xarici işlər naziri Sergey Lavrov uzun fasilədən sonra Qarabağla bağlı sükutu pozub. Bu dəfə isə o iddia edib ki, "Dağlıq Qarabağ münaqişəsini tərəflər yalnız özləri həll edə bilər" (apa). XİN rəhbəri bildirib ki, Rusiya tərəfinin bu məsələnin həlli ilə bağlı konkret planları ola bilməz:** "Rusiya, ABŞ və Fransa ilə birlikdə belə bir həllin əldə olunması üçün şəraitin yaradılması istiqamətində əlindən gələni edir". Rusiyanın Qarabağla bağlı nə etdikləri isə nəinki Azərbaycan və Ermənistana, bütün dünyaya yaxşı məlumdur. 2016-cı ilin aprel döyüşlərində Ermənistanı xilas edən məhz Rusiya oldu. Əks təqdirdə, indi Azərbaycan bayrağı Xankəndi üzərində dalğalanırdı...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018

# İraqda “Həşdi Şabi” hərbi-siyasi qüvvəyə çevrilmək yolunda

## İraqın ikinci ordusu yeni seçki bloku yaradaraq siyasətə atılır; ikinci Hizbullah İraqda yaranır

**2014-cü ildə İraqda İŞİD-in hücumlarına qarşı müdafiə məqsədilə yaradılmış “Həşdi Şabi” ordusu siyasətə daxil olur. 2016-cı ilin sonlarında parlament tərəfindən ölkənin ikinci rəsmi ordusu statusu alan qruplaşma parlament seçkilərinə qatılacaq. Daha dəqiqi, “Həşdi Şabi”yə daxil olan bir neçə qruplaşma birləşərək “Əl-Fəth” adlı seçki koalisiyası yaradıb.**

Yeni seçki koalisiyasının lideri “Həşdi Şabi”nin nüfuzlu komandirlərindən olan, “Bədr ordusu” birləşməsinin komandiri Hadi əl-Amiri seçilib. Bu barədə “Rudaw” telekanalına Ədalət və Birlik Partiyasının baş katibi Əmir Fayiz məlumat verib. “Əl-Fəth” koalisiyasına “Həşdi Şabi”yə daxil olan bir neçə hərbi-siyasi qrup, o cümlədən 15 partiya qatılıb. Koalisiyada həmçinin nüfuzlu sünni siyasət-hərbi xadim, İraqın keçmiş müdafiə naziri Xalid əl-Ubeydi də var. Son məlumatlara görə, İraqın nüfuzlu dini-siyasi xadimlərindən olan və İraq Ali İslam Şurasının lideri Əmmar əl-Həkim, “Əsaib əhli əl-Haqq” qruplaşmasının lideri Qeys əl-Xəzali də yeni koalisiyaya qoşulub.

Qeyd edək ki, İraqın hazırkı baş naziri Heydər əl-İbadi seçkilərə “ən-Nasr” koalisiyası ilə qatılacaq. Ancaq bəzi məlumatlara görə, seçkilər ərəfəsində ən-Nasr və əl-Fəth koalisiyaları birləşə bilər. Bu isə seçkilərdə nəhəng siyasi koalisiyanın yaranması və iqtidara sahiblənməsi deməkdir. Məsələ ondadır ki, İraqda Amerika işğalından sonra 2005-ci ildə ilk seçkilər keçirilib və parlament idarəçiliyinə əsaslanan hökumət qurulub. O zamandan bu yana İraqda prezident kürd siyasətçi. Baş nazir şiə, məclis sədri isə sünni siyasətçilərdən seçilir. Analoji bölgü Livanda mövcuddur. Livanda prezident maruni xristian, baş nazir sünni siyasətçi, məclis sədri isə şiə siyasətçilər arasından seçilir. Bu da daha çox etnik-dini qrupların ölkə siyasətindəki gücü və sayları ilə mütənasibdir.

İraqda ötən müddətdə iki parlament seçkisi olub - 2010 və 2014-cü illərdə. Və hər iki seçkidən sonra siyasi partiya çoxluğu əldə olunmadığı üçün uzun müddət hökumət koalisiyası qurmaq mümkün olmayıb. İndi isə böyük koalisiyalar qurulur və görünən odur ki, iraqlı siyasətçilər ölkədə yeni hökumət böhranları və onların doğuracağı nəticələrə qarşı qabaqlayıcı addımlar atırlar.

Ancaq maraqlıdır ki, “Həşdi Şabi”nin siyasətə və seçkilərə qatılmayacağı daha əvvəl bəyan olunmuşdu. Hətta İraq baş naziri xüsusi fərman imzalayaraq ordu mənsublarının seçkilərə qatılacağı təqdirdə ordudan çıxmalı olduğunu rəsmiləşdirib. “Həşdi Şabi” isə İraqın ikinci rəsmi ordusudur, formal olaraq baş nazirin hərbi təhlükəsizlik məsələləri üzrə müşavirinə tabedir. Ancaq indi “Həşdi Şabi”nin ən güclü komandirləri artıq seçki koalisiyası qurur. Doğrudur, Hadi əl-Amiri, Mehdi Mühəndis (“Həşdi Şabi”nin əməliyyat komandiri - K.R.) də daxil olmaqla, bir çox komandirləri deputat və hətta nazir postlarında təmsil olunub. Ancaq görünən odur ki, baş nazirin əmrindən sonra hansısa gizli bir razılaşma olub.



Bəzi mənbələrin məlumatına görə, İraqda “Həşdi Şabi”nin ümumi olaraq 300 min nəfər üzvü var. 136 min nəfər aktiv hərbi qüvvələrə sahibdir. İraq və qismən Suriya ərazisində hərbi əməliyyatlarda iştirak edən “Həşdi Şabi” İraq silahlı qüvvələrinin əsas zərbə gücünü təşkil edir. Yüksək səviyyədə silahlanıb, ciddi döyüş-əməliyyat təcrübəsi var. Ancaq indi bu qruplaşmanın siyasətə - seçkilərə qatılması yeni situasiyadan xəbər verir.

Məsələ burasındadır ki, “Həşdi Şabi” koalisiyası seçkilərə qatılacağı təqdirdə İraq parlamentində, yəni siyasətdə və hökumətdə təmsil olunmaq deməkdir. Çünki ilkin analizlər də göstərir ki, ən pis halda “Həşdi Şabi” koalisiyası (əl-Fəth) hökumət ortağı olacaq. Yəni bu ilin sonunda artıq İraq hökumətində “Həşdi Şabi” nümayəndələrini də görə biləcəyik. Bu isə İraqda yeni hərbi-siyasi gücün ortaya çıxmasının ilk işarəsidir. Bunun ən yaxın örnəyi isə Livandakı Hizbullahdır.

Bəlli olduğu kimi, Livan Hizbullahı həm hazırkı Livan parlamentində, həm də hökumətdə yerə sahibdir. Ölkə siyasətinə ciddi təsir imkanları var. Gedişat belə davam edəcəyi təqdirdə “Həşdi Şabi” yaxın illərdə ikinci Hizbullah olaraq ortaya çıxacaq. Əgər buna qədər İraq təhlükəsizliyi və müdafiəsi bu qruplaşma vasitəsilə möhkəmləndirilirdisə, indi artıq siyasi olaraq dövlətin əsas dayağına çevrilmək iddiasında olacaq. Bu isə dövlət təhlükəsizliyi xeyli dərəcədə kövrək və xarici təsirlərin çox güclü olduğu İraq üçün vacibdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Trampa bütün dünya etiraz edir, o isə tövrünü pozmur

## “İstifadə etdiyim üslub sərt idi, amma....”

**ABŞ prezidenti Donald Trump bəzi Afrika ölkələri və Haitini “zibil çuxuru” adlandırması iddialarına cavab verərkən irqçi olmadığını deyib. “Müsahibə aldığın insanlardan ən az irqçi olan mənəm” - deyə, bazar gecəsi qolf oynamağa gedərkən jurnalistlərə müsahibə verən Tramp deyib.**



Donald Trampın Oval Ofisdə qaçqınlar haqqında müzakirələr zamanı əsəbləşərək “bu zibil çuxuru ölkələrdən insanları niyə qəbul edirik?” cümləsini işlətdiyi iddia edilib.

“Washington Post” qəzetinin yaydığı xəbərdə Trampın bu cümləni Afrika ölkələri, El Salvador və Haiti haqqında istifadə etdiyi bildirilib. Tramp iddialardan sonra yazdığı twitter mesajında “iclasda istifadə etdiyim üslub sərt idi, amma istifadə etdiyim üslub bu deyildi. Əslində həqiqətən irəli sürülən təklif sərt idi” deyib.

Demokratlar Partiyasının bəzi üzvləri Trampı bu sözlərinə görə “irqçi” adlandıraraq qınayıb. BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının sözçüsü Rupert Colville deyib ki, “təsdiq olunarsa, bu, ABŞ prezidentinin sarsıdıcı və rüsvayçı şərhidir”.

Donald Tramp hakimiyyətə gələndən bəri bəzi ölkələrə qarşı sərt imiqrasiya siyasətini tətbiq etməyə çalışır. O, Grenn-Card lotereyasının ləğvinə də çağırır.

“ABŞ prezidenti Donald Tramp özünü sovet diktatoru Stalin kimi aparır”. Musavat.com xarici mətbuata istinadən xəbər verir ki, bu sözlər ABŞ senatoru Ceff Fleyk tərəfindən səsləndirilib.

Senator Fleyk Senatın bir həftədən sonra keçiriləcək sessiyalarından birində Ağ Ev rəhbərini “Stalinizm”də ittiham etməyə hazırlaşır.

Fleyki qəzəbləndirən Donald Trampın öz twitter hesabında liberal mətbuatı “xalq düşməni” adlandırması olub.

Bu termin Arizonadan olan senatora ABŞ prezidentini Stalinlə müqayisə etməsinə kifayət edib.

“Hakimiyyət əldə etmiş insan xoşuna gəlməyən mətbuatı sağa-sola "feyk (saxta) xəbərlər yaymaqda" ittiham edərkən hamı diqqətini mətbuata deyil, məhz bu adama yönəltməlidir", - Fleyk qeyd edib.

Fransanın keçmiş mədəniyyət naziri və Ərəb Dünyası İnstitutu rəhbəri Lang miqrantlarla bağlı dediklərinə görə Tramp haqqında “iyrənc prezident” kəlməsindən də istifadə edib.

Trampın bəzi ölkələr haqqında “zibil çuxuru” ifadəsindən istifadə etməsinə etirazlar davam edir. 54 Afrika ölkəsinin BMT nəzdindəki səfirləri bəzi Latın Amerikası və Afrika ölkələrindən gələn miqrantlara yönəlmiş həqarət təşkil edən sözləri səbəbilə ABŞ prezidenti Donald Trampın üzr istəməsini tələb ediblər.

“Sputnik”in xəbərinə görə, BMT-dəki Afrika qrupunun üzvü olan 54 ölkənin səfirləri, ABŞ prezidenti Trampın afrikalı qaçqınlara yönəlmiş sözlərinə görə Nyu-Yorkda təcili bir iclas keçirilib. Toplantının ardınca Trampı qınayan ortaq bir bildiri yayımlanıb.

Bildiridə Trampın Ağ Saraydakı bir toplantıda Haiti, El Salvador və Afrika ölkələrinə yönəlmiş “Bu zibil çuxuru olan ölkələrdən niyə bu insanları qəbul edirik” ifadəsinin “qalmaqal və irqçi olduğu” və şiddətli bir şəkildə qınandığı qeyd olunub.

“ABŞ qurumlarında afrikalıları rənglərinə görə aşağılamaq cəhdlərinin başlaması narahat, edicidir” ifadəsinə yer verilən bildirişdə həmçinin qeyd olunub ki, Afrika eyni şəkildə həqarət edilən Haiti və digər xalqları müdafiə edir. Bəyanatda Trampdan sözlərini geri götürməsi, üzr istəməsi tələb edilib və onu qınayan bütün amerikalılara təşəkkür edilib.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# “Xəzər Dəniz Gəmiçiliyi” 600 min manata “Stalinin yaxtası”nı almaq istəyir

**Moskva Çay Gəmiçiliyi İdarəsi 1934-cü ildə inşa edilmiş və “Stalinin yaxtası” kimi tanınan “Maskim Qorkiy” teploxodunu satışa çıxarıb.**



“APA-Economics”in “Kommersant” nəşrinə istinadən verdiyi məlumatına görə, Moskva Çay Gəmiçiliyi İdarəsi bu teploxodu 20 mln. rubla və ya 600 min manata satmaq niyyətindədir. Potensial alıcılar arasında Azərbaycanın “Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin adı da var.

Moskva Çay Gəmiçiliyi İdarəsinin baş direktoru Konstantin Anisimov faktı təsdiqləyib və “Xəzər Dəniz Gəmiçiliyi” QSC, həmçinin Nijniy Novqorod administrasiyası ilə bununla bağlı danışıqların aparıldığını bildirib.

K.Anisimov qeyd edib ki, Azərbaycan üçün bu gəmi eksponat kimi maraqlıdır: "Bu gəmidə Dəniz Donanması muzeyi yaradılacaq. Belə ki, bu il "Xəzər Dəniz Gəmiçiliyi" QSC 160 illiyini qeyd edəcək".

Qeyd edək ki, “Maksim Qorkiy” gəmisi 1934-cü ildə inşa edilib. Onun uzunluğu 69 metr, eni 13 metrdir. Teploxod 30 km/saat sürət yığa bilir. Teploxodun “Stalinin yaxtası” adlandırılmasına baxmayaraq, İosif Stalinin orada istirahət etməsi ilə bağlı heç bir fakt yoxdur. Ancaq 1935-ci ildə bu paroxodda Maksim Qorkinin istirahət etməsi ilə bağlı yayılan rəvayət də öz təsdiqini tapmayıb.

Məlumata görə, bu yaxtada müxtəlif illərdə Sov.İKP-nin MK-nin məşhur simaları olan Lavrentiy Beriya, Lazar Karaqoviç, Qriqoriy Orjonikidze, Vyaçeslav Molotov, Nikita Xruşyov, Leonid Brejnev istirahət edib. 2000-ci illərdə teploxodda daxili otaqların yenidən qurulması işləri aparılıb, onun mühərriki və naviqasiya sistemi dəyişdirilib. 130 nəfər sərnişin və 19 nəfər heyətə malik “Maksim Qorkiy” banket və gəzinti gəmisi kimi istifadə edilib. 2014-cü ildən isə teploxod ancaq restoran kimi istismar edilib. Bu səbəbdən də Moskva Çay Gəmiçiliyi İdarəsi gəmini satmaq qərarına gəlib.

Məlumata görə, şirkət artıq bu ilin ilk rübündə satışa bağlı razılığa gəlmək niyyətindədir.

“Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin mətbuat katibi Mehman Mehdiyevin “APA-Economics”ə verdiyi xəbərə görə, “Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin adıçəkilən gəminin alınmasına ilə bağlı niyyəti var: “Lakin bununla bağlı son qərar verilməyib”.

YENİ MÜSAVAT
N 10 (6899) 16 yanvar 2018

# Təyyarələr uçuş zolağından niyə çıxır?

**Türkiyənin Trabzon şəhərindəki hava limanından PC8622 reysi ilə Ankaraya uçacaq "Boeing 737-800" sərnişin təyyarəsi uçuş-enmə zolağından çıxaraq dərəyə düşüb.**

## Ekspertlər bildirirlər ki, təyyarələrin motorlarının birində problem yaşanarsa, onların uçuş zolağından çıxması mümkündür



"Pegasus Airlines" aviaşirkətinin təyyarəsində 168 sərnişin və heyət üzvü olub. Qəzada xəsarət alan olmayıb. Rəylər arasında o da bildirilir ki, təyyarənin uçuş zolağından çıxmasına səbəb zolaqda çökmənin olması ilə bağlıdır.

Təyyarələrin qəza etmə riski milyonda bir olsa da, bu hadisə baş verən zaman sərnişinlərin ölümdən qurtulmaq şansları da çox azdır.

Ümumilikdə isə dünyada təyyarə qəzaları əsasən eniş və qalxma zamanı baş verir. Xüsusilə də təyyarələr eniş zamanı daha çox qəza riski ilə üzləşirlər. Elə 2016-cı ilin avqust ayında "Pegasus Airline" aviaşirkətinə məxsus Boeing B737-800 tipli təyyarə İstanbulda Sabiha Gökçen Hava Limanında eniş edən zaman uçuş zolağında sol şinlərində problem yaşanmışdı. Həmin ərəfədə də böyük çaxnaşma baş vermişdi.

Mürəkkəb qurğu olan təyyarələrin eniş prosesi heç də göründüyü qədər sadə deyil. Mütəxəssislər bildirirlər ki, təyyarə eniş edən zaman burada ağırlıq məsələsi də çox önəmlidir. Xüsusilə də uzaq məsafəyə uçan təyyarələrin təcili eniş zamanı nəzərdə tutulan yanacağı yandıraraq çəkisini azaltması çox önəmlidir. Əksər uzaq məsafəyə uçan təyyarələr yanacağın ağırlığı səbəbindən tez bir zamanda eniş edə bilməzlər. Əgər bu ağırlıqda eniş edilərsə, təyyarə parçalana bilər.

Lakin bunun üçün də müasir zamanda müvafiq sistemlər də yaradılıb. Hansı ki bu sistem vasitəsilə təyyarələr yanacağının bir neçə tonunu qısa müddətdə ata bilir. Öncə bir misala diqqət edək. Belə ki, ötən ilin oktyabr ayında İstanbulda Türk Hava Yollarına məxsus təyyarə Kanadaya yol almaq üçün havaya qalxdıqdan az sonra bir sərnişinin səhhətində problem yaranmışdı. Təyyarə havada 7 saat 22 dəqiqə dövr etdikdən sonra Atatürk Hava Limanına eniş etmişdi. Təyyarənin bu qədər müddət havada qalmasının səbəbi isə yuxarıda qeyd etdiyimiz kimi, yanacaq atması və lazımi ağırlığa sahib olması idi. Lakin həmin təyyarədə yanacaq boşaltma sistemi olsaydı, qısa müddətdə həmin yanacaqdan azad olub, eniş edə bilərdi.

Yeni təyyarələrin planlanmayan eniş zamanı qəza etməsinin, sonra isə alovlanmasının əsas səbəblərindən biri lazımi ağırlıqdan artıq çəkidə olması ilə bağlıdır.

Planecrashinfo.com saytının araşdırmasına görə, 1993-cü ildən 2012-ci ilə qədər etibarlı və böyük bir hava yolu ilə uçarkən, sərnişinlərin hər uçuşa görə ölmə ehtimalları 4,7 milyonda 1-dir. Təhlükəsizlik baxımından daha zəif hava yolu şirkəti ilə uçan zaman isə sərnişinin qəzaya düşərək həyatını itirmə riski 2 milyonda 1-dir.

Tədqiqatçılar bildirirlər ki, 2012-ci ildə ölüm halları ilə nəticələnən təyyarə qəzalarının 88%-i Afrika (45%) və Asiyada (43%) baş verib. Bu da istifadə edilən təyyarələrin köhnəliyi ilə bağlıdır.

Gələk əsas məsələyə. Türkiyədə baş verən qəzanın uçuş zolağı ilə əlaqəli olduğu bildirilir. Bəs uçuş zolaqları necə hazırlanır?

Uçuş zolaqları adətən istifadə məqsədinə görə torpaqdan, çimdən və asfaltdan hazırlanır. Konkret olaraq Trabzon Hava Limanında uçuş zolağının uzunluğu 2500 metrdir. Türkiyəli ekspertlər bildirirlər ki, bu qəzada pilot sağ mühərrikə güc verdiyi halda təyyarə sol tərəfə atıla bilər. Bildirilir ki, təyyarənin bu cür yoldan çıxması elektron mühərrik nəzarət qurğusunda səhv səbəbindən ola bilər. Çox nadir hallarda bu qurğuda belə səhvlər baş verir. Buna hətta "computer crazy" (dəli kompüter) də deyirlər. Göründüyü kimi, hələ ki Türkiyənin aviaekspertləri hadisənin motorun birində baş verən nasazlıq səbəbindən yarandığını söyləyirlər. Lakin hadisəyə konkret nəyin səbəb olması araşdırmalar sonrası, pilotların izahatları alındıqdan sonra dəqiq bilinəcək.

Onu da qeyd edək ki, Türkiyənin Atatürk Hava Limanında olan 3 uçuş zolağından 2-si beton özüldən, 1-i isə xüsusi asfaltdan hazırlanıb. Bütün uçuş zolaqlarında küləyin istiqamətini və gücünü göstərən qurğular olur. Çünki eniş və qalxma zamanı küləyin istiqaməti, gücü də çox önəmlidir. Əgər təyyarə 2-3 nəfərlikdirsə, bu zaman uçuş zolağının uzunluğu 400-500 metr olur. Böyük təyyarələrin eniş və qalxış zolaqları isə 3-4 kilometrə qədər olur. Ekspertlər bildirirlər ki, bu xətlərdə hansısa aşınmanın, uçmanın olması mümkün deyil. Çünki zolaqlar hazırlanan zaman burada bütün texniki məsələlər nəzərə alınır və uçuş zolağına daima nəzarət edilir. Atatürk Hava Limanında mövcud olan 3 uçuş zolağının ikisinin uzunluğu 3 min metr, biri isə 2600 metrdir.

Dünyada uçuş zolağı kimi istifadə olunan avtomobil yolları da mövcuddur. Belə ki, İkinci Dünya müharibəsi dövründə Almaniyada avtomobillər tərəfindən istifadə edilən yollarda təyyarələrin eniş və qalxışı üçün də istifadə edilirdi. Orada magistral yollar salınan zaman təyyarələr də nəzərə alınırdı. Təbii ki, həmin zamanlar təyyarələr indiki kimi böyük və ağır deyildi.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bakıya nə zaman qar yağacaq...

## "Qar keyfiyyətli və bol məhsul əldə etməyə faydalıdır" - ekspert

**Artıq yanvar ayının ortasında olsaq da, bir neçə rayonu çıxmaq şərtilə, qış havası demək olar ki, yaşanmır. Hətta insanlar ritorik olaraq deyirlər ki, bu il qış gələsi olmadı...**



Qarın yağmaması isə daha çox kənd təsərrüfatına ziyan vurur. Bir sıra dağlıq ərazilərdə qar olsa da, bu cüzidir. Qar örtüyünün hündürlüyü Sarıbaşda 14, Şahdağda 12, Qırız, Kişçayda 10, Şəkidə 9, Altıağac, Xaçmaz, Lerikdə 8, Şərur, Yardımlıda 6, Qusarda 5, Zaqatalada 4, Qəbələ, Oğuz, Şamaxı, Quba, Kəlvəz, Xınalıqda 3, Şahbuz, Daşkəsən, Gədəbəy, İsmayıllı, Xaltan, Göytəpədə 2, Tovuz, Mərəzə, Ağdərə (Ordubad), Tərtərdə 1 sm təşkil edib. Ancaq əksər rayonlarda və paytaxtda hələ də qar yoxdur. Bəs bu bölgələrə və Bakıya qar nə zaman yağacaq?

**Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova "Yeni Müsavat"a açıqlamasında Bakıya hələ ki qar yağmayacağını dedi:** "Yanvar ayının 13-ü axşamdan başlayaraq ölkə ərazisində hava şəraitinin dəyişilməsi müşahidə olunub. Yağıntı olub, qar yağıb. Bəzi yerlərdə isə yağan qarın hündürlüyü də əmələ gəlib. Qeyri-sabit hava şəraiti yanvarın 17-dək davam edəcək. 17-də hava şəraiti stabilləşəcək və yağmursuz keçəcək. Paytaxtda isə hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və səhər saatlarında isə yağıntılı olacağı ehtimalı var. Lakin 17-i günorta saatlarından paytaxtda hava şəraiti mülayimləşəcək və əsasən yağmursuz keçəcək. Dağlarda temperatur ötən günlərlə müqayisədə tədricən yüksələcək".

**Qarın hazırda yağmasının torpaq üçün dərmana bərabər olacağını deyən torpaqşünas Yasin Kərimov məhsulların keyfiyyətli yetişməsi üçün bu amilin zəruri olduğunu dedi:** "Qarın bu vaxt yağması yaz-yay dövründə su ehtiyatı üçün yaxşıdır. Düzən yerlərdə isə taxıl bitkiləri artıq əkilib. Qarın bu ərazilərə yağması xeyirdir ki, taxılın üstünü örtsün. Həmçinin məhsulun donmaması, normal şəraitdə qalması üçün xeyirlidir. Çünki qar örtüyü olduqca orada bitki yaxşı qalır və yazda yaxşı bar verir. Bu cür hava olsa, şaxta olmasa və yağış yağsa, bu zaman taxıl bir çox yerlərdə tez yetişir. Buna görə də məcbur olurlar ki, bunu heyvana versinlər, otarsınlar. Məhsulların iqlimə uyğun yetişməsi üçün qarın yağması mütləqdir. Qarın keyfiyyətli və bol məhsul əldə etməyə faydalıdır".

❑ **Günel MANAFLI**

# Azərbaycan ötən il avtomobil idxalını 2 dəfədən çox artırıb

**2017-ci ildə Azərbaycana avtomobil idxalı 2016-cı illə müqayisədə 7 352 ədəd və yaxud 127,95% (2,3) dəfə artıb. Dövlət Gömrük Komitəsindən (DGK) "Report"a verilən məlumata görə, ötən il ərzində xaricdən Azərbaycana 5 746 ədəd avtomobil gətirildiyi halda, 2017-ci ildə 13 098 ədəd avtomobil idxal olunub.**



Məlumata görə, ölkəyə gətirilən avtomobillərin 187 ədədi, yaxud 1,43%-i sürücü daxil olmaqla, 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri, 11 610 ədədi, yaxud 88,64%-i əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri, 1 227 ədədi və ya 9,37%-i yük daşımaq üçün motorlu nəqliyyat vasitələri, 74 ədədi, yaxud 0,57%-i isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitələridir.

Əvvəlki ilə nisbətən sürücü daxil olmaqla, 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələrinin sayı 91 ədəd, yaxud 94,79% artıb, əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələrinin sayı 2,3 dəfə, yaxud 6 619 ədəd, yük daşımaq üçün motorlu nəqliyyat vasitələrinin sayı 656 ədəd, yaxud 2,15 dəfə artıb. Lakin xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin idxalı isə 14 ədəd, yaxud 15,91% azalıb.

# Yanvar və fevral ayının pensiyalarının artımı birlikdə fevral ayında ödəniləcək



**"Fevral ayının pensiyalarının ödənişi zamanı pensiyaların yanvar və fevral aylarındakı artımlarla birlikdə ödənilməsi nəzərdə tutulur". "Report"un xəbərinə görə, bu barədə Əmək və və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.**

Qeyd olunub ki, hər il olduğu kimi, əmək pensiyalarının indeksləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin ayrıca sərəncamının imzalanacağı gözlənilir: "Belə ki, həmin sərəncamla Dövlət Statistika Komitəsinin 2017-ci il üçün ölkə üzrə orta aylıq nominal əmək haqqının artım göstəricisi barədə təqdim edəcəyi məlumat əsasında əmək pensiyalarının cari il yanvarın 1-dən həmin qədər artırılması həyata keçiriləcək. Məlumat üçün bildirək ki, indeksləşdirmə ötən illərdən fərqli olaraq yeni mexanizmlə baş tutacaq. Belə ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş və 2017-ci il iyulun 1-dən tətbiqinə başlanılan dəyişikliklərə əsasən, əmək pensiyalarında "baza hissəsi" və "sığorta hissəsi" anlayışları aradan qalxıb. Ona görə də əvvəlki illərdən fərqli olaraq, əmək pensiyalarının yalnız sığorta hissəsinin deyil, artıq bütün məbləğinin ölkə üzrə əmək haqlarının əvvəlki ilin artım faizinə uyğun indeksləşdirilərək artırılması təmin olunacaq. Bu dəyişiklik, ilk növbədə, pensiyasının məbləği aşağı olanlar üçün xüsusilə məqsədəuyğundur. Məsələn, 200 manat pensiya məbləği əvvəllər 110 manat baza hissəsindən və 90 manat sığorta hissəsindən ibarət idi və indeksasiya yalnız sığorta hissəsinə tətbiq olunurdu, deməli, 12,9%-lik inflyasiyaya görə artım cəmi 11,61 manat (200-110)x12,9% edəcəkdi. Yeni qaydalara görə isə bütün məbləğə (yəni 200 manata) orta aylıq əmək haqqının artım sürəti, yəni 6,4%-lik artım tətbiq olunur və nəticədə pensiya 200x 6,4%=12,8 manat artır. Göründüyü kimi, hətta inflyasiyanın tempinin orta aylıq əmək haqqının artım tempindən 2 dəfə çox olduğu şəraitdə belə yeni qayda aşağı məbləğdə (215 manatdan az) pensiya alanlar üçün effektivdir.

Artımların nə vaxt ödəniləcəyinə gəldikdə, fevral ayının pensiyalarının ödənişi zamanı pensiyaların yanvar və fevral aylarındakı artımlarla birlikdə ödənilməsi nəzərdə tutulur".

## Rusiyalı alimə Azərbaycanda 10 sutka həbs verildi

### Hərbi hissənin şəklini qanunsuz çəkdiyinə görə Çulkov inzibati məsuliyyətə cəlb olunub



**Rusiyalı alimin Azərbaycanda saxlanılmasının detalları məlum olub. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Rusiya vətəndaşı olan Dmitri Çulkovun Azərbaycanda üzləşdiyi xoşagəlməz hal onun birbaşa özünün törətmiş olduğu xətanın nəticəsi olub.**

Belə ki, cəbhə bölgəsində yerləşən Göygöl rayonu ərazisindəki hərbi hissələrdən birinə yaxınlaşan Dmitri Çulkov qadağan olunmuş əraziyə daxil olub və həmin ərazidə yerləşən hərbi hissənin fotolarını çəkib. O, hərbçilərin tələbinə məhəl qoymayaraq, çəkilişi davam etdirib. Belə olan halda əraziyə polis çağırılıb. Lakin D. Çulkovo polisin də qanuni tələbinə məhəl qoymayıb.

Nəticədə hüquq-mühafizə orqanları müəyyən araşdırma apardıqdan sonra Dmitri Çulkov barəsində toplanmış materiallar rayon məhkəməsinə göndərilib. Yanvarın 5-də məhkəmə Dmitri Çulkov barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 535-ci maddəsinə (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) əsasən 10 sutka inzibati həbs qərarı çıxarıb. Dmitri Çulkov səhvini başa düşdüyünü bildirib, hətta üzrxahlıq da edib.

Dmitri Çulkov barəsində seçilmiş həbs qərarının müddəti başa çatıb. O, ölkəsinə yola salınıb.

Qeyd edək ki, Rusiya mətbuatı Rusiya Elmlər Akademiyasının Astronomiya İnstitutunun əməkdaşı Dmitri Çulkovun yanvarın 5-də itkin düşməsi barədə məlumat yayıb.

## Azərbaycanda uşaqlar arasında virusun yayılmasının səbəbi açıqlanıb

**"Qış mövsümü ilə əlaqədar Azərbaycanda uşaqlar arasında soyuqdəymə xəstəlikləri geniş yayılıb". "Report" xəbər verir ki, bunu K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyev deyib.**

O bildirib ki, virusların törətdiyi yoluxmaların törədicilərini aşkar edəndə bunun bir-iki virusun hesabına olmadığı müşahidə edilir: "Çünki burada müxtəlif viruslar olur. Bunlar da nəticə etibarilə uşaqlar arasında yuxarı tənəffüs yollarının iltihabını törədir. Ümumilikdə, bu gün ölkədə virusun törətdiyi epidemiya yoxdur".

Baş pediatr qeyd edib ki, xəstəliklər arasında ilk sırada körpə doğulandan sonrakı müddətdə tənəffüs üzvlərinin xəstəliyi gəlir: "İkinci yerdə perinatal dövrdəki xəstəlik, sonrakı yerdə isə infeksion, anadangəlmə inkişaf qüsurları və digərləri gəlir".

Son illər əkiz, üçəm və çoxdöllü hamiləliyin sayında artım olduğunu deyən N.Quliyev vurğulayıb ki, bunun səbəbi süni mayalanma ilə əlaqədardır: "Ölkədə baş verən körpə ölümləri əsasən yenidoğulanlar arasında və perinatal dövrlərdə müşahidə olunur".

## Fevralın 1-dən başqa universitetlərə köçürülmək istəyən tələbələrin sənəd qəbulu başlayır

**Tələbələrin Azərbaycan daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkədə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə elektron sənəd qəbuluna başlanılacaq.**

Bu barədə "Report"a Təhsil Nazirliyindən məlumat verilib.

Məlumata görə, cari ilin fevral ayının 1-dən etibarən transfer.edu.az portalı vasitəsilə sənəd qəbulu həyata keçiriləcək və bu proses fevralın 7-dək davam edəcək. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi ilə birgə fəaliyyət çərçivəsində yaradılan transfer.edu.az portalı tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsinə və şəffaflığın təmin olunması məqsədinə xidmət edir.

Tələbələrin köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır.

Transfer.edu.az portalı vasitəsilə köçürülən tələbələr köçürüldüyü ali təhsil müəssisəsindən və yaxud ixtisasından imtina etmək hüququna malik deyil.

Qeyd edək ki, ötən tədris ilində portal vasitəsilə 1191 nəfər tələbə köçürülüb.



## Gənclərə psixotrop həb satmaq istəyən dəstə məhkəmə qarşısında

**Qaçaqmalçılıq yolu ilə gizli şəkildə ölkəyə külli miqdarda psixotrop maddə olan MDMA həbləri (ekstazi) gətirməkdə təqsirləndirilən şəxslər hakim qarşısına çıxarılıb. Onlar Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində saxlanılıb.**

Musavat.com xəbər verir ki, saxlanılan 3 nəfərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub. Hakim Faiq Qəniyevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası baş tutub.

Prosesdə təqdirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Baxış iclası yanvarın 22-nə təyin edilib.

Dövlət Təhlükəsizlik Xidmətindən verilən məlumata görə, psixotrop maddələri qaçaq yolla ölkəyə gətirib qanunsuz olaraq gənclərin toplaşdıqları müxtəlif məkanlarda müntəzəm yayılmasını təşkil etməkdə şübhəli bilinən Məmmədov Ələkbər Zakir oğlu, Mustafayev Şəmistan Əli oğlu və Qasımov Cəlal Sübhan oğlu 2017-ci il martın 15-də saxlanılıblar.

Məlumata görə, araşdırma zamanı külli miqdarda psixotrop maddə olan MDMA həbləri, habelə külli miqdarda güclü təsiredici "Preqabalin" maddələri aşkar edilərək götürülüb.

Qeyd edək ki, Ə.Məmmədov Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 234.4.1-ci (qanunsuz olaraq narkotik vasitələri saxlama, satma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə), Ş.Mustafayev 29, 234.4.3-cü (qanunsuz olaraq narkotik vasitələri saxlamaya və satmaya cəhd, külli miqdarda törədildikdə) və C.Qasımov 29, 234-cü (qanunsuz olaraq narkotik vasitələri saxlamaya və satmaya cəhd) maddələri ilə ittiham olunur.

**ABŞ-ın Havay ştatında ballistik raket hücumu barədə verilmiş həyəcan siqnalı onun yanlış verildiyi müəyyən olunana qədər yerli sakinləri təlaşa salıb. Şənbə günü Havay sakinlərinin mobil telefonlarına göndərilmiş rəsmi mesajın mətni belə olub: "Havay istiqamətində yaxınlaşan ballistik raket təhlükəsi. Təcili olaraq sığınacaq axtarın. Bu, təlim-məşq deyil".**

# Dünyanın düzənini dəyişən yanlış anlaşılmalar, tərcümə xətaları...

## Diplomatik qalmaqallara və uğursuzluqlara səbəb olan sözlər, komandana çatmayan məktub...

Ştatın qubernatoru David Ige yanlış siqnalın verilməsinə görə üzr istəyərək deyib ki, hadisəyə səbəb işçinin düyməni səhv basması olub.

Nəticədə adadakı sakinlərin mobil telefonlarına ballistik raket hücumu barədə xəbərdarlıq göndərilib. Səhvin baş verdiyi email vasitəsilə 18 dəqiqədən, mobil telefon mesajlaşması vasitəsilə isə 38 dəqiqədən sonra bildirilib.

Lakin ilkin həyəcan siqnalından təsirlənmiş və təlaş içində olan insanların çoxu mümkün hücumdan qorunmaq üçün təcili olaraq sığınacaq axtarmaqda davam edib.

ABŞ hökuməti hadisənin ətraflı araşdırılacağını bildirib.

Şimali Koreya raketlərinin uçuş dairəsi Havay adalarını əhatə etdiyindən ABŞ-ın bu ştatında əhalini mümkün ballistik raket hücumundan xəbərdar edən həyəcan siqnalı ötürən sistem mövcuddur.

Dekabr ayında Havay ştatında "soyuq nüharibə" dövrü bitəndən bəri ilk dəfə olaraq, nüvə hücumu təhlükəsindən xəbər verən həyəcan təbili (sirena sistemi) sınaqdan keçirilib.

Şənbə günü verilmiş həyəcan mesajı isə sakinlərə mobil telefonlar vasitəsilə mətn formatında göndərilib. Həmin təcili xəbər eləcə də televiziya və radio vasitəsilə də yayımlanıb.

**Cimmi Karter Polşada elə səhvlər edib ki...**

Əslində bu, olduqca kiçik və sonu hər hansı bir zərərlə bitməyən yanlışlıqdır. Amma dünya tarixində yanlış anlaşılmaların, ani yanlışlıqların, ani səhvlərin nəticəsində baş vermiş böyük hadisələr, savaşlar və qarşıdurmalar yaşanıb. "Yeni Müsavat" bu hadisələrin bəzilərini sizin nəzərinizə çatdırır.

Amerikanın keçmiş prezidenti Cimmi Karter danışanda kütlələrin diqqətini necə özünə çəkəcəyini bilirdi. 1977-ci ildəki Polşa ziyarətində etdiyi bir nitq zamanı bu ölkəyə qarşı "cinsi arzu" duyduğunu demişdi. Ən azından tərcüməçi belə deyirdi. Daha sonra anlaşıldı ki, Karter əslində Polşa xalqının "gələcəyə dair arzularını" anlamaq istədiyini demişdi.

Karterin tərcüməçisi "Bu səhər Amerikadan çıxdım" sözlərini də "Bir daha dönməmək üzrə Amerikanı tərk etdim" şəklində tərcümə etmişdi. Həmin həftə yayımlanan "Time" jurnalına görə, Karterin Polşada olduğuna görə xoşbəxtliyini ifadə edən sözləri də "Polşanın cinsi orqanını tutmaq xoşbəxtlik verir" kimi tərcümə edilmişdi.

Karter axşamkı özəl yeməkdə isə əlbəttə ki, eyni tərcüməçinin xidmətindən istifadə etməmişdi. Amma sıxıntı bununla da yekunlaşmamışdı. Yeməkdəki nitqində ilk cümləsi tərcümə edilməmişdi. İkinci cümləsi də onun kimi. Prezidentin yeni tərcüməçisi onun ingiliscəsini anlamamış və səssiz qalmağı tərcih etmişdi. Karter Polşadan gedəndə artıq zarafat mövzusuna çevrilmişdi.

**Xruşşovun səhvi dünyanı alt-üst edib**

1956-cı ildəki bir tərcümə xətası isə soyuq müharibə atmosferinin daha da gərginləşməsinə yol açmışdı. Sovetlər birliyi lideri Nikita Xruşşovun Moskvadakı Polşa səfirliyində qərbli diplomatlara yönəlmiş bir yeməkdə etdiyi çıxışındakı


Cimmi Karter


Nikita Xruşşov


Gunter Şabovski

bir cümləsi "Sizi basdıracağıq" şəklində tərcümə olunmuşdu. Bu sözlər jurnal və qəzet manşetlərində yer aldı, SSRİ ilə Qərbin münasibətlərini daha da soyutdu.

Amma məsələyə kontekst daxilində baxılanda Xruşşovun sözlərinə əslində "Xoşunuza getsin, ya da getməsin, tarix bizim yanımızdadır. Sizin altınızı oyacağıq" mənasına gəlirdi. Burada Xruşşov kommunizmin daha çox yaşayacağını, kapitalizmin öz içindən çökdürüləcəyini vurğulayır. Karl Marksın "burjuaziyanın öz məzar qazıcılarının yaratdığını" sözlərini başqa formada ifadə edən Xruşşovun yanlış tərcümə nəticəsində səslənən bu sözləri isə amerikalılarda nüvə hücumu yaradacaq effektli bir təhdid olmuşdu.

Xruşşov sözlərinə aydınlıq gətirsə də, bu, onun bir neçə ilini almışdı. 1963-cü ildə Yuqoslaviyada etdiyi bir çıxışda belə deyirdi: "Təbii ki, sizi kürəklə basdıracağıq. Öz işçi sinfiniz sizi basdıracaq".

**Berlin divarının aradan götürülməsi... səhv nəticəsində baş verib**

Daha bir yanlış anlaşılma nəticəsində baş verən qalmaqala keçək. 1989-cu ildə Şərqi Almaniya siyasətçisi Gunter Şabovski mətbuat konfransı keçirirdi və Şərqi-Qərb Almaniya sərnişin məhdudlaşdırılmaları ilə bağlı açıqlamalar verirdi. Amma qurduğu tək bir cümləni tamamən yanlış bir şəkildə qurdu və dedikləri sərnişin məhdudlaşdırılmalarının tamamən aradan qaldırılması kimi anlaşıldı. Bunu eşidən bir qəzetçi bu dəyişikliklərin nə zaman həyata keçəcəyini soruşdu və Schabovski "dərhal" deyə cavab verdi. Və nə oldu? Berlin divarı dərhal aradan götürüldü.

1961-ci ildə Kuba hücumu planlaşdırıldığı zaman həm hava qüvvələri, həm də ordu eyni vaxtda sürpriz bir plan hazırlamışdı. Amma Pentaqon Nikaraqua və Kuba arasındakı saat fərqini hesablamağı unutdu və hava qüvvətləri 1 saat gecikdi. Nəticə? Hücum bir məğlubiyyətlə nəticələndi.

1961-ci ildə SSRİ "N1" raketi ilə Ayı hədələyirdi. Yanacaq nasosuna ilişən bir əşya isə raketin qalxmasından saniyələr sonra partlamasına səbəb oldu. Baş vermiş hadisə nüvə bombası xaricində insanlıq tarixinin gördüyü ən böyük partlama idi...

Marşal Ervin Rommel 1944-cü ildə Avropanı müttəfiq dövlətlərdən qorumağa məsul idi. Rommel həmin ilin 6 iyununda həyat yoldaşının ad günü partisinə qatılmaq üçün icazə aldı və məhz həmin gün müttəfiqlər Normandioyaya ayaq basdılar. Bununla almanlar II Dünya müharibəsindəki ən böyük məğlubiyyətlərini yaşadılar.

Amerika inqilabı zamanı Vaşinqton pullu əsgərlər tərəfindən mühasirəyə alınan Trenton şəhərini ələ keçirə bilmək üçün Delaveyrə daxil olaraq irəliləyirdi. Yol üstündəki bir fermer əsgərləri gördü və bir məktub yazaraq pullu əsgərlərin komandiri Cohann Gotlieb Rallə göndərdi. Amma məktub açılmamış bir halda müharibədən sonra Rallin cibində tapıldı.

Gördüyünüz kimi, bir-birindən maraqlı və ziddiyyətli bu hadisələr bütünlüklə dünya tarixinin gedişinə təsir göstərib. Kiçik yanlış anlaşılmalar müharibələrə, ciddi diplomatik krizlərə və qalmaqallara səbəb olub.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Qlobal istiləşmə - gerçəklik, yoxsa uydurma...

## Qurban Yetirmişli: "İqlimin anormal dəyişikliyini hiss edirik"

**Son 50 ildə dünyada ən çox müzakirə edilən məsələlərdən biri də qlobal istiləşmə, iqlim dəyişikliyi, ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi və bu kimi problemlərdir. Dünya ekspertləri də qeyd edir ki, buna səbəb inkişaf etmiş ölkələrin böyük sənaye müəssisələridir.**



Ümumiyyətlə, 1860-cı ildən günümüzə qədər tutulan qeydlər qlobal istiliyin ortalama 0.5-0.8 dərəcə arasında artdığını göstərir. Mütəxəssislər son 50 ildəki istilik artımının insan həyatına gözə çarpacaq dərəcədə təsir etdiyini düşünürlər. Heç bir tədbir görülməzsə bu əsrin sonunda qlobal istiliyin ortalama 2 dərəcə artacağı təxmin edilir. Tədqiqatlara görə, son 150 illik dövr içində 2007-ci il ən isti il olub. Artıq dünya iqlim sistemində dəyişikliklərə səbəb olan qlobal istiləşmənin təsirləri ən yüksək zirvələrdən okean dərinliklərinə, ekvatordan qütblərə qədər dünyanın hər yerində hiss edilir. Qütblərdəki buzlaqlar əriyir, dəniz suyunun səviyyəsi yüksəlir və sahil seqmentlərdə torpaq itkiləri artır. Qlobal istiləşməyə bağlı olaraq dünyanın bəzi bölgələrində qasırğalar, sellər və daşqınların şiddətlənir, davamlı quraqlıq olur, payız gecikir, heyvanların köç dövrləri dəyişir. Bunun nəticəsində dəyişikliklərə dözə bilməyən bitki və heyvan növləri ya azalır, ya da tamamilə yox olur. Qlobal istiləşmə insan sağlamlığına da ciddi təsir göstərir.

Anomal iqlim dəyişkənliyi, iyul-avqust aylarında bütün ölkələrdə sel və daşqın, təbii fəlakətlər Yer kürəsində yeni təhlükəli hava siklonlarının yarandığını göstərir.

Ekspertlərin rəyinə görə, 2050-ci ildə dünyada 2 milyard insan sudan məhrum olacaq, 30 il sonra da 3 milyard insan istifadə olunan su qaynaqlarını itirəcək. BMT ekspertləri tərəfindən hazırlanan "İqlim dəyişiklikləri və su" hesabatına görə, dünyadakı iqlim dəyişiklikləri su qaynaqlarına da təsir edir. Hesabat müəlliflərinin gözləntilərinə inansaq, 2050-ci ildə dünyada iki milyard insan sudan məhrum olacaq, 30 il sonra da 3 milyard insan istifadə edə biləcəyi su ehtiyatlarını itirəcək.

Hesabata görə, dünya əhalisi ilə birlikdə əkinçilik və sənaye istehsalı artır, dünya iqtisadiyyatı böyüyür, ancaq su qaynaqları sürətlə tükənir. Sənəddə göstərilir ki, dünya əhalisinin yüzdə 20 faizini təşkil edən 30 ölkə su çətinliyi ilə qarşı-qarşıya durur. 2025-ci ildə isə bu ölkələrin sayı 50-yə çatacaq və dünya əhalisinin yüzdə 25-i su çətinliyi ilə üz-üzə qalacaq.

Bununla belə, bəzi ekspertlər bildirir ki, dünyada qlobal istiləşmə, iqlim dəyişikliyi yoxdur. Bu, sadəcə, bir çox ölkələrin liderlərinin uydurmasıdır. Qeyd olunur ki, müəyyən dövlətlər qlobal istiləşmə adı ilə pul qazanmaq istəyirlər. Necə ki, indi külək enerjisini, Günəş panelləri bizə sırıyırlar. Əksinə, müəyyən müddətdən sonra soyuma prosesi, buzlaq dövrü yaxınlaşacaq və sairə.

Beləliklə, suallar ortaya çıxır, qlobal istiləşmə gerçəklikdir, yoxsa uydurma?

**Mövzu ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli "Yeni Müsavat"a danışıb:** "İqlimin anormal dəyişikliyini hiss edirik. Elə Azərbaycanın özündə də gözlənilməyən istilər başlayır. Müşahidə etdik ki, payız mövsümündə havalar isti keçdi. Bəzən isə gözlənilmədən isti ölkələrə qar yağdığının, soyuq ölkələrdə isə isti iqlimin şahidi olduq. Məsələn, Moskvada havanın necə isti keçdiyini gördük. Beləliklə, qlobal istiləşmə, iqlim dəyişikliyi realdır. Bir faktı qeyd edə bilərəm, bildiyiniz kimi, Şimalı Buzlu Okeanda buzların parçalanması prosesi gedir. Yeni belə bir fakt var. Həmçinin bu haqda tədqiqatlar da aparılır.

İqlim dəyişikliyinin özü ilə bərabər hansı fəlakətlər gətirdiyi isə hər kəsə məlumdur".

❑ **Xalidə GƏRAY**
**Musavat.com.**

YENİ MÜSAVAT

Son səhifə

N 10 (6899) 16 yanvar 2018



## Uşaq 10 aylıq olsa da, 5 yaşlı kimidir

**Xuanita Valentina Ernandes güclə danışsa da, artıq ölkəsinin ən məşhur insanlarından birinə çevrilib. O, 10 aylıq qızdır və populyarlığının səbəbi hansısa fitri istedadı yox, çəkisidir. 10 aylıq Xuanitanın çəkisi 20 kiloqramdır və o, 5 yaşlı uşaq ağırlığındadır.**

Milli.Az BTV-yə istinadən bildirir ki, anadan olanda çəkisi vur-tut 3,2 kq olan Xuanita sürətlə kökəlməyə başlayıb və 10 aydan sonra nəhəng uşağa çevrilib. Həkimlərin dediklərinə görə, 10 aylıq körpənin maksimal çəkisi adətən 8,5 kiloqramdan artıq olmur.

"Qızımın hava şarı kimi şişməsinin səbəblərini bilmirəm. Həkimlərin dediklərinə görə, qızımda patoloji kökəlmə və piylənmə var. Balama görə çox qorxuram. Qızım doğulandan 15 gün sonra kökəlməyə başladı. Müalicə üçün pulumuz yoxdur. İşsizik, kasıbıq", - balaca Xuanitanın anası, Kolumbiyanın Libano şəhərinin sakini Sandra Franko söyləyib.

Kolumbiyadakı "Gorditos de Corazon" xeyriyyə təşkilatı Xuanitanın müalicəsi ilə bağlı xərcləri ödəyəcəyini bildirib. Hazırda paytaxt Boqotada mütəxəssislərin müayinə etdikləri Xuanitada orqanizmdə daimi aclıq hissi yaradaraq vücud çəkisini təhlükəli sürətlə artıran Prader-Villi sindromu var.

Bundan başqa, həkimlər Bekvit-Videman sindromunu da istisna etmirlər.

# İntiharın səhv yol olduğunu bildirmək üçün qurban getdi...

**Cənubi Karolinada baş verən bir hadisə zamanı 43 yaşlı Ceyms Gagum intiharın yanlış yol olduğunu göstərmək istəyərkən, başına dirədiyi silahın içərisinin dolu olduğunu bilməyib və özünü vurub. O, yerindəcə dünyasını dəyişib. "The Huffington Post"un xəbərinə görə, hadisənin şahidi deyib ki, Gagum film izləyərkən intihar edən adamın etdiyinin səhv olduğunu söyləyərək, düz olanı göstərməyə çalışıb. Silahın boş olduğunu düşünən adam 3 dəfə tətiyi çəkib. Amma dördüncü dəfə tətiyə basarkən atəş açılıb.**



Polis təsdiqləyib ki, Gagum silahın dolu olduğunu fərq etməyib. Təcili yardım komandası isə onun hadisə yerində dünyasını dəyişdiyini təsdiqləyib. Məlum olub ki, mərhum 2010-cu ildə evinə zorla girərək ailəsinə silah çəkən 3 oğrudan birini silahla öldürübmüş.

# Qadın kökdürsə, xərçəngə yoluxma ehtimalı böyükdür



**Artıq çəki ciddi şəkildə xərçəng xəstəliyi riskini artırır.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalar üzrə mərkəzlərindən biri olan Beynəlxalq Xərçəng Araşdırmalar Mərkəzinin hesabatında bildirilir. Hesabata görə, aparılan araşdırmalar zamanı məlum olub ki, dünya üzrə bu xəstəliyin 3.6 faiz piylənmə səbəbindən əmələ gəlir. Araşdırmaya görə, artıq çəkili qadınlarda xərçəng xəstəliyi kişilərlə müqayisədə 2.5 dəfə artıq müşahidə edilir.

Alim Melina Arnold artıq çəkinin müxtəlif mexanizmlərinin xərçəngə səbəb olduğunu deyir. "Məsələn, döş xərçəngi. Biz bilirik ki, buna səbəb əsasən piy toxumalarının ifraz etdiyi hormonlardır. Həmin hormonlar xərçəng əmələ gətirir" - mütəxəssis əlavə edib.

Arnoldun dediyinə görə, araşdırmalar zamanı 90 000-ə yaxın kişidə bağırsaq və böyrək xərçəngi aşkar edilib. Qida borusunda və udlaqda xərçəng isə ən geniş yayılan xəstəlikdir və əsasən ağır çəkili kişilərdə müşahidə olunur: "Buna səbəb əsasən mədə turşuluğunun artıq olmasıdır və belə hallar piylənmə olan insanlarda qeydə alınır".

Alimlər artıq çəkinin problemə çevrildiyini və bu problemin gələcək 10 illə 20 il arasında xərçəngin sayını artıracağını proqnozlaşdırır.




**QOÇ** - Bu gündən şəxsi həyatınızda böyük dönüş yaranacaq. Bu, həm fəaliyyət zəminində, həm də qarşılıqlı münasibətlərdə özünü büruzə verəcək. Bu arada aldığınız hər bir təklifə ciddi yanaşın.

**BUĞA** - Energetik anlamda sizin üçün əhəmiyyətli bir təqvimdir. Qarşınızda duran sınaqlardan daha mənfəətli şıxmaq üçün bunun böyük əhəmiyyəti olacaq. Axşama doğru ailə üzvlərinizlə əlaqəni dərinləşdirin.

**ƏKİZLƏR** - Saat 13-ə qədər bütün ciddi işlərinizi təxirə salın. Çünki nəzərdə tutduğunuz planların reallaşma ehtimalı nəinki yoxdur, habelə bu istiqamətdə maneələriniz artacaq. Sonrakı saatlar qismən uğurludur.

**XƏRÇƏNG** - Astroloji göstəricilər qarşınızda görüşlərlə zəngin bir gün olduğunu bəyan edir. Səfər üçün uğurlu olmasa da, yaxın məsafədə yaşayan simsarlarınıza baş çəkməyiniz sizə rahatlıq gətirəcək.

**ŞİR** - Yaxşı olar ki, hər şeydən əvvəl Tanrıya üz tutasınız. Son zamanlar bunu etmədiyiniz üçün işləriniz heç də yaxşı getmir. Elə isə vaxt itirməyin, nahardan etibarən hərəkətə keçin. Doğru olanı seçin.

**QIZ** - Maraqlı səfərlər yolunuzu gözləyir. Ümumiyyətlə, indi sizə insanlarla çoxəlaqəli ünsiyyət qurmaq həddən artıq vacibdir. Ən azı ona görə ki, tənhalıq, özünə qapılmaq daxilinizdə irticaçı fikirlər formalaşdıra bilər.

**TƏRƏZİ** - Göy qübbəsinə inansaq, bu gün maddi problemləriniz düzəlməlidir. Amma gərək boş-boş şeylərə xərc çəkməyəsiniz. Əks təqdirdə müflisləşə bilərsiniz. Günün ikinci yarısında perspektivli təkliflər alacaqsınız.

**ƏQRƏB** - Özünüzü xəstəlikdən qorusanız, ixtiyarınızda olan bu təqvimdə heç bir ciddi problemlə rastlaşmayacaqsınız. Ulduzlar bəyan edir ki, saat 15-dən etibarən qarşınızda böyük perspektivlər açılacaq.

**OXATAN** - Hiss olunur ki, ötən günlərin verdiyi gərginlikdən özünüzə gəlməmisiniz. Amma bu təqvimdə eyni şeylərin təkrarlanacağına inanmayın. Çünki saat 11-dən müvəffəqiyyətli müstəvidə olacaqsınız.

**OĞLAQ** - Bürcünüzün aktivlik dövrünə təsadüf edən bu təqvimdə əsas diqqəti əsəblərinizin qorunmasına yönəltməlisiniz. Çünki ünsiyyədə olduğunuz adamlardan bir çoxu zəhmətinizin dəyərini aşağı salmağa çalışacaq.

**SUTÖKƏN** - Saat 13-ə qədər sağlıq durumunuza diqqət yetirsəniz, qalan müddəti rahat şəkildə başa vuracaqsınız. Üstəlik, yeni iş təklifləri, pozulmuş münasibətlərin bərpası ovqatınızı xoş edəcək.

**BALIQLAR** - Kosmik mənzərə əleyhinizə işlədiyi üçün bütün şübhəli və həll olunmamış məsələlərdə daha çox neytral mövqe nümayiş etdirin. Əsəblərinizi qorumaq isə başlıca öhdəliyiniz olmalıdır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Marketdə alış-veriş etməsi həyatını xilas etdi



Danielle McCullochun həyatı bal ayı tətili zamanı qarşılaşdığı həkimin müayinəsi sayəsində qurtulub. "Daily Mail"in xəbərinə görə, Kiprdə bal ayı tətili keçirən 26 yaşlı qadının marketdə qarşılaşdığı həkim onun boynunda bir şiş olduğunu və ən yaxın zamanda həkimə göstərməsini söyləyib. İngiltərəyə qayıdan kimi həkimə gedən 2 uşaq anası Daniellenin üçüncü mərhələdəki tiroit xərçəngi olduğu ortaya çıxıb. Həkimə minnətdarlığını bildirən Danielle onun barəsində aşağıdakıları deyib: "Həyatımı xilas etdi. Üstəlik, heç iş başında da deyildi, marketdə alış-veriş edirdi. Boynumdakı yumru daha öncə heç kimin diqqətini çəkməmişdi. Həkimə getməsəydim, bəlkə də indiyə həyatda olmazdım" deyib. Xərçəngə qalib gələn gənc qadın sistemli olaraq "check-up" etdirəcəyini deyib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100